QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 077 (5549) 21 **aprel** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# İlham Əliyev: "Azərbaycan dünyada çox müsbət reputasiyaya malik olan ölkədir"

Səh 3





Bakı Metropolitenin ən müasir avadanlıqla təchiz edilməsi istiqamətində böyük işlər həyata keçirilir

2



"Azərbaycan xalqı İlham Əliyevi Prezident seçməklə inkişafa, təhlükəsizliyə, tərəqqiyə səs verdi"

4



Hikmət Babaoğlu: "Prezidentin fərmanı bundan sonra atılacaq addımların xəbərçisidir"

5



"İlham Əliyevin seçkilərdə inamlı qələbəsi xalqımızın son 15 ildə görülən işlərə verdiyi ən real qiymətdir"

5



Seymur Orucov: "Gənclər üçün kifayət qədər əlverişli şərait yaradılıb"

6

Avropa azərbaycanlıları Ermənistanın təxribatları ilə əlaqədar beynəlxalq təşkilatlara bəyanat ünvanlayıblar

7

14

Donald Tramp: Neftin qiyməti süni şəkildə çox yüksəkdir



13

ABŞ, Qərb və Rusiya Serj Sarkisyanı izolə edəcək



16

Daha üç boksçumuz Avropa birinciliyində mərhələ adlayıb



# Bakı Metropolitenin ən müasir avadanlıqla təchiz edilməsi istiqamətində böyük işlər həyata keçirilir

## *Prezident İlham Əliyev paytaxta gətirilən yeni metro qatarlarında yaradılan şəraitlə tanış olub*





Aprelin 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Metropoliteninin qatar parkının yenilənməsi məqsədilə paytaxta gətirilən yeni qatarlarda yaradılan şəraitlə tanış olub. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Bakı Metropoliteninin "İçərişəhər" stansiyasına gəldi.

"Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin sədri Zaur Hüseynov dövlətimizin başçısına metronun konseptual inkişaf sxemi və yeni metro qatarları barədə məlumat verdi. Son illərdə digər sahələrdə olduğu kimi, Bakı Metropolitenin ən müasir avadanlıqla təchiz edilməsi və sərnişinlərin rahatlığının təmin olunması istiqamətində Prezident İlham Əliyevin rəhbərliyi ilə böyük işlər həyata keçirilir. Bu işlərdə əsas məqsəd paytaxt sakinlərinin və şəhərimizin qonaqlarının rahat hərəkət etmələri, onların mənzil başına təhlükəsiz çatmalarıdır. Bu gün Bakı Metropoliteni ən çox sərnişin daşıyan nəqliyyat növü olmaqla, şəhər sakinlərinə və paytaxtımızın qonaqlarına yüksək səviyyədə xidmət göstərir. Yeni vaqonların alınması isə bu xidməti daha da yüksəltməyə geniş imkan yaradır.

Prezident İlham Əliyev yeni metro vaqonlarına baxdı. 2018-ci ildə Rusiyanın "Transmaşholdinq" şirkətinin "Metrovaqonmaş" Açıq Səhmdar Cəmiyyətində istehsal olunan bu vaqonlar müasirliyi ilə seçilir. Yeni qatarın sürəti saatda 90 kilometrdir. Qatarın baş vaqonu 38 oturacaqlı olmaqla, ümumilikdə, 315 yerlik, orta vaqonu isə 44 oturacaqlı olmaqla, ümumilikdə, 328 yerlikdir. Yeni vaqonların mühərriklərinin gücü 170 kilovatdır.

Qəza, sürüşmə, yanğın əleyhinə yeni sistemlərin tətbiqi qatarda hərəkət təhlükəsizliyini əhəmiyyətli dərəcədə artırıb. Vaqonlardakı sərnişinlərin təhlükəsizliyi daxili və xarici videomüşahidə sistemləri əsasında təmin edilir. Bu sistem nəinki maşinistə müraciət edən sərnişini, həmçinin onun ətrafında olan vəziyyəti qiymətləndirməyə imkan verir. Bundan əlavə, videotəsvirin videomüşahidə mərkəzinə ötürülməsi də nəzərə alınır. Maşinist kabinəsi maşinistin sayıqlığına nəzarət edən texniki vasitələr və intellektual dəstək sistemləri ilə təchiz edilib. İdarəetmə sistemlərinin optimallaşdırılması, yerləşdirilməsi və pult üzərində əksolunması bir qrup maşinistlə aparılan müzakirələrdən sonra işlənib. Qatarda, həmçinin məlumatın yığılması, saxlanması və maşinist monitoruna ötürülməsini nəzərdə tutan özünüdiaqnostika sistemi tətbiq edilib. Maşinist kabinəsinin sahəsi də 15 faiz artırılıb.

Prezident İlham Əliyev yeni qatarla metronun "İçərişəhər" stansiyasından "Nəriman Nərimanov" stansiyasına getdi.

Qatarda vaqonlararası birbaşa keçidin təmin edilməsi ilə onun konstruksiya tutumu sələfləri ilə müqayisədə 15 faiz çoxdur. Vaqonlararası keçidin olması bütün qatar boyunca sərnişinlərin bərabər paylanmasını, sərnişinlərin yerləşmə sahəsini genişləndirməklə onların rahat daşınmasını və təhlükəsizliyini təmin edir. Vaqon qapıları əvvəlki nümunələrlə müqayisədə 12 faiz enlidir. Qapıların açılıb-bağlanma sürəti aşağı olduğundan və qapı arasında qalmaq təhlükəsinə qarşı sistemin mövcudluğu sərnişinlərin təhlükəsizliyini artırır. Qapıların yanlarında onların bağlanması barədə sərnişinlərə xəbərdaredici işıq indikatorları quraşdırılıb. Tambursuz konstruksiya istilik izolyasiyasının yüksək məhsuldarlığını təmin edir ki, bu da öz növbəsində, havanın bütün qatarda bərabər paylanmasına şərait yaradır. Vaqonlarda mükəmməl istilik, salonda təzyiqin tənzimlənməsi və ultrabənövşəyi lampalarla havanın bioloji təmizlənməsi sistemləri mövcuddur.

Yeni konstruksiyalı səsboğucu ilə təmin edilmiş təkərlərdən istifadə olunduğu üçün qatarlar səssiz və rəvan hərəkət edir. Bunun hesabına vaqonlarda sərnişinlərin rahatlığı təmin olunur. Yeni gətirilən vaqonların çəkisinin az olması qatarın yola təsirini azaldır ki, bu da səs-küyün səviyyəsinin minimuma endirilməsi ilə nəticələnir. Vaqonlarda ayaq üstə dayanan sərnişinlər üçün çoxfunksiyalı zonalar, o cümlədən iri yüklər, uşaq arabaları üçün hissələr nəzərdə tutulub, sürahilər sərnişin sıxlığı da nəzərə alınaraq layihələndirilib, onların sayı 30 faiz artırılıb.

İstifadə olunan diodlu lampalar vaqonlarda salonun işıqlandırılmasını tənzimləməyə, həmçinin rəng çalarlarının dəyişməsinə imkan verir. İşıq diodlu cihazların tətbiqi elektrik enerjisi sərfiyatını 50 faiz azaldır, onların istismar müddətini isə 75 faiz artırır. Qatarın istehsalında müasir materiallardan istifadə olunduğu üçün onun uzun müddət açıq xətlərdə belə istismarını mümkün edir.

Dövlətimizin başçısına metronun konseptual inkişaf sxemi barədə məlumat verildi.

Son dövrlərdə görülən işlərin nəticəsidir ki, qatarların əsaslı təmiri əvvəllər xarici ölkələrdə həyata keçirilirdisə, hazırda bu işlər "Nərimanov" elektrik deposunda yüksək standartlara cavab verən Qatarların Əsaslı Təmiri Sahəsində icra edilir. Depo ərazisində mexaniki və digər sahələrin bir yerdə olacağı yeni zonanın yaradılması da nəzərdə tutulur ki, burada da bir çox ehtiyat hissələri və avadanlıqları istehsal ediləcək. Deponun infrastrukturu və hərəkətin idarəolunması sistemləri müasir tələblərə cavab verən texnologiyalarla təchiz edilib.





Onu da deyək ki, Bakı Metropoliteninin qatar parkının yenilənməsi məqsədilə paytaxta gətirilən yeni qatarlar bu gündən sərnişinlərin ixtiyarına verildi. Yüksək tələblərə cavab verən yeni qatarlar mütərəqqi texnologiya ilə təchiz olunmaqla müasir idarəetmə sisteminə malikdir. Belə qatarların alınması Bakı Metropoliteninin qatar parkının yenilənməsi istiqamətində atılan mühüm addım olmaqla yanaşı, sərnişinlərin rahat və təhlükəsiz daşınmasını yüksək səviyyədə təmin etmək baxımından da böyük rol oynayır.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev ölkədə idxal-ixrac əməliyyatlarına nəzarət sisteminin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Mədəniyyət və turizm sahəsində dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev 1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Əli Həsənovun 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikasında qaçqınların və məcburi köçkünlərin sosial məsələlərinin həllində səmərəli fəaliyyətinə görə Əli Şamil oğlu Həsənov 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

* * *

Prezident İlham Əliyev İstehlak bazarına nəzarət, standartlaşdırma, metrologiya və əqli mülkiyyət hüquqları obyektlərinin mühafizəsi sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

# İlham Əliyev: “Azərbaycan dünyada çox müsbət reputasiyaya malik olan ölkədir”



Azərbaycanda keçirilən prezident seçkiləri və bu seçkilərə verilən yüksək beynəlxalq qiymət həm də onun göstəricisidir ki, ölkəmiz son 15 ildə beynəlxalq aləmdə böyük nailiyyətlərə imza atıb. Bu baxımdan, Prezident İlham Əliyev andiçmə mərasimindəki çıxışında sözügedən məsələyə toxunaraq, qeyd edib ki, Azərbaycan son 15 il ərzində beynəlxalq aləmdə böyük uğurlara imza atdı: “Bizim dünyadakı mövqelərimiz möhkəmlənir, Azərbaycan çox müsbət beynəlxalq reputasiyaya malik olan bir ölkədir. Bizə qarşı dünya birliyi tərəfindən böyük rəğbət, dəstək var, biz bunu hiss edirik və əldə edilmiş nəticələr, qəbul edilmiş qərarlar bunu bir daha təsdiqləyir. Əlbəttə ki, bunun ən bariz nümunəsi bizim 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına seçilməyimiz olubdur. Bu, gənc müstəqil dövlət üçün çox böyük nailiyyətdir və bu, onu göstərir ki, dünya birliyinin mütləq əksəriyyəti bizi dəstəkləyir”.

Digər bir məqam, Azərbaycanın regionda mövcud olan qonşu dövlətlərlə sıx münasibətlər qurması, bu münasibətlərin yüksək səviyyədə inkişaf etdirilməsidir. Ölkə başçımız çıxışı zamanı bu məsələyə də toxunaraq vurğulayıb: “Biz son 15 il ərzində qonşu dövlətlərlə daha da sıx münasibətlər qura bildik. Deyə bilərəm ki, ikitərəfli münasibətlərimiz indi ən yüksək səviyyədədir, qonşu dövlətlərlə bizim heç bir problemimiz yoxdur, bütün məsələlər konstruktiv şəkildə öz həllini tapır və ikitərəfli əməkdaşlıq çoxtərəfli əməkdaşlığa şərait yaradır. Çoxtərəfli əməkdaşlıq da Azərbaycanın təşəbbüsü ilə baş verir. Bizim təşəbbüsümüzlə dörd qonşu ölkə ilə dörd çoxtərəfli əməkdaşlıq formatı yaradılıbdır və bu, işlək formatlardır. Biz bu üçtərəfli və dördtərəfli görüşlərdə çox önəmli məsələləri müzakirə edirik, həll edirik. Məsələlərin həlli bütün qonşu ölkələr, o cümlədən, Azərbaycan üçün böyük fayda verir, eyni zamanda, qonşularla isti münasibətlərimiz regional sabitliyə, təhlükəsizliyə də öz müsbət təsirini göstərir”.

### “Aparıcı beynəlxalq təşkilatlar Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın ədalətli mövqeyini dəstəkləyir”

Dövlət rəhbərimiz çıxışı əsnasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı mövcud olan prosesləri də təhlil edərək bildirib ki, münaqişənin həlli çərçivəsində beynəlxalq təşkilatlarla ardıcıl işlər aparılıb və nəticədə, Azərbaycanın ədalətli mövqeyi dəstəklənib: “Biz son 15 il ərzində beynəlxalq təşkilatlar çərçivəsində çox fəal iştirak etmişik, bundan sonra da fəal iştirak edəcəyik. Beynəlxalq təşkilatlar Azərbaycanın mövqeyini dəstəkləyir, xüsusilə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı bizim ədalətli mövqeyimizi dəstəkləyir. Təkcə onu demək kifayətdir ki, son 15 il ərzində bir çox ən mötəbər beynəlxalq təşkilatlar münaqişə ilə bağlı bizim təklifimizi qəbul edərək, çox önəmli qətnamələr qəbul etmişlər. Orada göstərilir ki, münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. BMT-nin Baş Assambleyası, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası Parlament Assambleyası, Avropa Parlamenti, İqtisadi Əməkdaşlıq Təşkilatı, GUAM və digər təşkilatlar münaqişə ilə bağlı bizim mövqeyimizi dəstəkləyən qətnamələr qəbul etmişdir. Ondan əvvəlki dövrdə isə BMT Təhlükəsizlik Şurası və ATƏT qətnamələr qəbul etmişdir ki, bu, münaqişənin həlli üçün hüquqi baza yaradır”.

“Biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində beynəlxalq təşkilatların dəstəyini tam qazana bilmişik, Ermənistanın işğalçı siyasətini ifşa etmişik”-deyə vurğulayan Cənab İlham Əliyev, həmçinin, bildirib ki, nəticədə, işğalçı Ermənistan onun üçün əhəmiyyətli sayıla biləcək bütün regional layihələrdən təcrid vəziyyətində qalıb: “Nail ola bilmişik ki, Ermənistan bu gün bütün regional layihələrdən təcrid edilmiş vəziyyətdədir. BMT Təhlükəsizlik Şurasının qətnamələri münaqişənin həlli üçün əsas bazadır, hüquqi bazadır. Dünyaya bir daha sübut edə bilmişik ki, biz haqlıyıq. Baxmayaraq ki, bizə qarşı kampaniyalar aparılır, erməni lobbi təşkilatları bizə qarşı kampaniyalar aparır. Ancaq bu kampaniyalar beynəlxalq təşkilatların qərarlarına təsir edə bilmədi. Biz siyasi və diplomatik uğurlar qazana bildik. Qondarma “Dağlıq Qarabağ”ı heç kim tanımır və əminəm ki, tanımayacaq. Orada keçirilən qondarma “referendum”u bizim qonşu ölkələrimiz və beynəlxalq təşkilatlar pisləòdilər”.

Ölkə başçımız, xüsusilə, vurğulayıb ki, Dağlıq Qarabağ Azərbaycanın tarixi torpağıdır və hüquqi baza mövcuddur ki, ötən 15 ildə, o, daha da möhkəmləndirilib: “Dağlıq Qarabağ Azərbaycanın tarixi torpağıdır. Hüquqi baza var. Biz 15 il ərzində bu bazanı möhkəmləndirdik. Biz son 15 il ərzində münaqişə ilə bağlı həqiqətləri dünya birliyinə çatdıra bilmişik, kitablar yazıldı, xəritələr, qədim xəritələr ortaya qoyuldu, təqdimatlar, sərgilər keçirildi. Ondan çox ölkə Xocalı qətliamını soyqırımı kimi tanıdı. Bizim diplomatik və siyasi uğurlarımız öz nəticəsini verməkdədir”.

### “Ermənistan dalan ölkəyə çevrilib”

Qeyd edə bilərik ki, işğalçı Ermənistanın regional layihələrdən kənarda qalması bu ölkənin süquta doğru sürətlə irəliləməsinə səbəb olmaqdadır. Bu faktı da önə sürən İlham Əliyev Cənabları bildirib ki, bu gün Ermənistan dalan ölkəyə çevrilib: “Biz gizlətmirik ki, səylərimiz nəticəsində Ermənistanı bütün regional layihələrdən təcrid etmişik və bu siyasət öz nəticələrini verməkdədir. Biz bundan sonra da bu siyasəti davam etdirəcəyik və əminəm ki, istədiyimizə nail olacağıq. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız və yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bunun başqa yolu yoxdur. Azərbaycan heç vaxt imkan verməz ki, bizim ərazimizdə ikinci qondarma erməni dövləti yaradılsın”.

Prezident İlham Əliyev bugünkü Ermənistanın tarixi Azərbaycan torpaqları olduğunu xatırladıb və bildirib ki, təkcə sözlə deyil, sübutlarla həmin faktlar isbata yetirilib: “Onu da biz dünya birliyinə, ictimaiyyətinə çatdırırıq ki, nəinki Dağlıq Qarabağ, indiki Ermənistan bizim tarixi torpaqlarımızdır. Təkcə sözlə yox, biz sübutlarla dünya birliyinə bunu çatdırırıq. Elmi əsərlər yazılır, arxivlər qaldırılır, tarixi kitablar yazılır. Bunu sübut edən kifayət qədər tarixi sənəd var. XIX əsrin əvvəllərində İrəvan xanlığının əhalisinin 80 faizini azərbaycanlılar təşkil edirdi. Biz bir neçə deportasiyaya məruz qalmışıq. Bütün bunları biz çatdırmalıyıq, çatdırırıq və bu, öz səmərəsini verməkdədir.

Bizim Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı prinsipial mövqeyimiz Azərbaycan xalqı tərəfindən dəstəklənir. Biz bu siyasətdən dönməyəcəyik, bundan sonrakı illərdə də işğalçını bütün işlərdən, regional işlərdən təcrid edəcəyik, onları ifşa edəcəyik. Gələcək illərdə isə bizim gücümüz daha da artacaq. Çünki bu gün reallaşan böyük təşəbbüslər və layihələr bizim gücümüzü daha da artıracaqdır.

Eyni zamanda, biz yaxşı bilirik və bunu tarix, yaxın tarix və bölgədə gedən proseslər göstərir ki, bir çox hallarda beynəlxalq hüquq normaları işləmir. Kim güclüdür, o da haqlıdır. Biz bunu dəfələrlə görmüşük, bu gün də görürük. Demək olar ki, son 15 il ərzində beynəlxalq davranış qaydaları dəyişdi, beynəlxalq hüquq normaları arxa plana keçdi. Güc amili daha önəm qazandı. Bu, reallıqdır. Biz real həyatda yaşayırıq və reallıqla hesablaşmalıyıq”.

### “Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır”

Söz yox ki, güclü dövlətin güclü ordusu olur və Azərbaycanın inkişaf və tərəqqisi reallığı da, bu cür qənaətə gəlməyə kifayət qədər əsas verməkdədir. O cümlədən, ölkəmizdə aparılan güclü ordu quruculuğu tam əmin olmağa zəmin yaradır ki, Silahlı Qüvvələrimiz dünya orduları içində ən güclülərdən biridir. Prezident İlham Əliyev Cənabları vurğulayıb: “Bu reallıq, bir də onu göstərir ki, bizim ordu quruculuğu ilə bağlı apardığımız siyasət yeganə düzgün siyasətdir. Bu siyasətin əvvəlində böyük işlər görüldü. Son 15 il ərzində ordu quruculuğu prosesi sürətlə getmişdir. Bəzi hallarda bizi tənqid edirdilər ki, siz nəyə görə bu məsələlərə bu qədər vəsait xərcləyirsiniz. Ancaq həyat göstərdi ki, biz düzgün siyasət aparmışıq. Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Təchizat, silah-sursat, texnika, döyüş qabiliyyəti baxımından ordumuz güclü ordular sırasındadır. Ordumuz üçün nə lazımdırsa, biz onu da təmin edirik. Ən müasir silahlar alınır və bundan sonra da alınacaq.

Ordumuzun gücünü düşmən də gördü. Aprel döyüşləri bizim şanlı tariximizdir və böyük qələbəmizdir. Azərbaycan Ordusu Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının torpaqlarının bir hissəsini işğalçılardan azad etdi, minlərlə hektar torpağa biz nəzarət edirik. Bu torpaqlara həyat qayıdır, bu torpaqlarda Azərbaycan bayrağı dalğalanır, insanlar qayıdır, yeni qəsəbə salınıbdır. Bizim hərbi qələbəmiz Azərbaycan xalqının gücünü və yenilməz ruhunu göstərir. Onu göstərir ki, Azərbaycan xalqı bu işğalla heç vaxt barışmayacaq. Bunu göstərir ki, biz öz torpaqlarımızı azad edəcəyik. Buna nail olmaq üçün daha da güclü olmalıyıq və olacağıq”.

### “Cocuq Mərcanlı qəsəbəsi bizim dirçəliş rəmzimizə çevrilib”

2016-cı ilin aprelində Ermənistanın təxribatının qarşısı alınarkən, Azərbaycan Ordusunun həmin təxribatın qarşısını şücaətlə alması, eləcə də, bir sıra strateji əhəmiyyətli yüksəkliklərimizin düşmən tapdağından azad edilməsi xalqımızda böyük ruh yüksəkliyi yaratdı və qələbə əzmi daha da artdı. Ölkə başçımız bildirib ki, azad edilən Cocuq Mərcanlı qəsəbəsi xalqımızın dirçəliş rəmzinə çevrildi: “Cocuq Mərcanlı qəsəbəsi bizim dirçəliş rəmzimizə çevrilibdir. Cocuq Mərcanlıya qayıdan həyat hər bir Azərbaycan vətəndaşını ürəkdən sevindirir, onu qürurlandırır. Ermənilər, vandallar, Ermənistan rəhbərliyi bizim tarixi abidələrimizə də soyqırımı törədib, məscidlərimizi dağıdıb. Amma onlar başa düşmürlər ki, biz dağılmış məscidləri qəlbimizdə yaşadırıq. Biz dağılmış məscidləri qəlbimizdə ucaltmışıq. Torpaqlar işğaldan azad olunandan sonra vandallar tərəfindən dağıdılmış Şuşa məscidinin bənzərini biz Cocuq Mərcanlıya gətirdik, orada tikdik. Bu gün bu torpaqlarda bizim insanlarımız ibadət edə bilirlər. Bu, bir daha onu göstərir ki, biz heç vaxt işğalla barışmayacağıq. Biz köçkünlərlə bağlı olan məsələləri də uğurla həll edirik. Yüzə yaxın qəsəbə salınıb, 280-290 min köçkün soydaşımız yeni evlərlə, mənzillərlə təmin edilibdir. Biz bundan sonra da onlara dəstək göstərəcəyik. Köçkünlərin məişət problemləri, onların məşğulluğu daim diqqət mərkəzindədir. Gələcəkdə də bu istiqamətdə addımlar atılacaqdır”.

Beləliklə, mühüm olan daha bir məqam budur ki, Azərbaycan beynəlxalq aləmdə davamlı olaraq öz mövqelərini gücləndirməklə ədalətli mövqeyini sübuta yetirmiş olur və işğal faktı ilə barışmayaraq, düşmən tapdağı altında qalan digər torpaqlarımızın da azad ediləcəyi gün uzaqda deyil.

*Rövşən RƏSULOV*

# “Azərbaycan xalqı İlham Əliyevi Prezident seçməklə inkişafa, təhlükəsizliyə, tərəqqiyə səs verdi”

Azərbaycan xalqı aprelin 11-də ölkəmizdə keçirilmiş prezident seçkilərində növbəti dəfə çox düzgün seçim etdi. Xalqımız bu dəfə də Azərbaycanın iqtisadi inkişafına, təhlükəsizliyinə, tərəqqisinə, ölkəmizdə ictimai-siyasi sabitliyin qorunmasına səs verdi və yenidən cənab İlham Əliyevi Prezident seçdi. Azərbaycan xalqı birlik, həmrəylik nümayiş etdirdi. Ədalətli və şəffaf şəkildə keçirilən prezident seçkiləri xalqımızın iradəsini tam əks etdirdi.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Milli Məclisin ictimai birliklər və dini qurumlar komitəsinin sədri, Yeni Azərbaycan Partiyası icra katibinin müavini Siyavuş Novruzov bildirib.

Siyavuş Novruzov qeyd edib ki, Prezident İlham Əliyev aprelin 18-də Milli Məclisdə keçirilmiş andiçmə mərasimində ötən 15 ili əhatə edən çox geniş nitq söylədi. Proqram xarakterli bu nitq bütün sahələri özündə ehtiva etdi. Bu nitqdə ötən 15 il ərzində əldə olunmuş nailiyyətlər, perspektivdə görüləcək işlər öz əksini tapıb.

Milli Məclisin komitə sədri qeyd edib ki, Azərbaycanın son 15 illik tarixi mühüm bir inkişaf mərhələsini təşkil edir. Dövlətimizin başçısı nitqində də



qeyd etdi ki, son 15 il ərzində biz böyük uğurlara imza atdıq, Azərbaycan xalqı təhlükəsizlik, sabitlik şəraitində yaşamışdır. Bu 15 il ərzində dünyanın müxtəlif bölgələrində, bizim bölgəmizdə, Avropada çox təhlükəli proseslər baş verirdi: qanlı toqquşmalar, müharibələr, vətəndaş müharibələri, dövlət çevrilişləri. Yəni, təhlükəsizlik baxımından son 15 il çox gərgin keçmişdir. Azərbaycanda isə xalqımız təhlükəsizlik şəraitində yaşamışdır.

Azərbaycanın hərtərəfli inkişafı, dövlətimizin başçısının verdiyi hər bir vədin konkret əməli işdə öz təsdiqini tapması, atdığı hər bir addımda xalqa arxalanması, əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm işlər görməsi xalqımızın Prezidentimizə inamını, xalq-iqtidar birliyini daha da möhkəmləndirib. Əminik ki, Prezident İlham Əliyev növbəti yeddi ildə də görəcəyi işlərlə Azərbaycanın uğur səhifələrini daha da zənginləşdirəcək. Dövlətimizin başçısı nitqində də vurğuladı ki, bundan sonrakı illərdə bu günə qədər görə bilmədiyimiz işləri başa çatdıracağıq. Siyavuş Novruzov vurğulayıb ki, növbəti prezidentlik dönəmi üçün səlahiyyətlərini icra etməyə başlayan dövlətimizin başçısı, ilk növbədə, ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olmuş hərbi qulluqçuların ailələrinə üstünlük verdi. Prezidentin səlahiyyətlərinin icrasına başlayan kimi imzaladığı ilk sənəd məhz Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında Fərman oldu. Ümumiyyətlə, son 15 il ərzində Azərbaycan Prezidenti sosial məsələlərin həllinə çox böyük diqqət göstərib. Bu istiqamətdə görülən işlər, o cümlədən imzalanmış son Fərman dövlətimizin başçısının siyasətinin mərkəzində insan amilinin dayandığını bir daha təsdiq edir.

# Ziyafət Əsgərov: “Son 15 ildə qazandığımız nailiyyətlər Prezident İlham Əliyevin uzaqgörən siyasəti ilə bağlıdır”



Aprelin 18-də Prezident İlham Əliyevin andiçmə mərasimində söylədiyi proqram xarakterli nitq son 15 ilin yekunu və gələcəyə yönəlmiş bir “yol xəritəsi” idi. Bu fikri AZƏRTAC-a açıqlamasında Milli Məclis sədrinin birinci müavini, parlamentin müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov deyib.

Ziyafət Əsgərov bildirib ki, bu gün Azərbaycan inkişafın ən yüksək səviyyəsindədir. İrimiqyaslı layihələrin reallaşdırılması istiqamətində böyük tədbirlər həyata keçirilir. Azərbaycanın son 15 il ərzində həyata keçirdiyi layihələr, neft-qaz sənayesində əldə olunan uğurlar, iqtisadiyyatın şaxələndirilməsi, aparılan islahatlar, Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizləri və sair - bütün bunlar inkişafdan xəbər verir. Dövlətimizin başçısı nitqində Azərbaycanın kosmik qrupa daxil olan ölkə olduğunu xüsusi vurğuladı.

Milli Məclis sədrinin birinci müavini qeyd edib ki, ötən illər ərzində Azərbaycan beynəlxalq münasibətlər sahəsində də böyük nailiyyətlər qazanıb. Azərbaycan 155 dövlətin dəstəyi ilə Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının üzvü seçilib. Bu, o deməkdir ki, Azərbaycan bu gün regionun ən nüfuzlu dövlətlərindən biridir. Azərbaycan bu gün, sözün həqiqi mənasında, öz təhlükəsizliyini yüksək səviyyədə qoruyan, müdafiəsini təmin edən bir dövlətdir. 2016-cı ilin Aprel hadisələri onu göstərdi ki, Azərbaycan Ordusu işğal altındakı torpaqlarımızı istənilən an azad etməyə qadirdir. Bu gün ölkəmiz inkişafın çox yüksək mərhələsindədir, regionda Azərbaycansız qlobal məsələlərin həlli demək olar ki, mümkün deyil.

Ziyafət Əsgərov bildirib ki, Prezident İlham Əliyev nitqində gələcəkdə görüləcək işlər haqqında da ətraflı danışdı və “yol xəritəsi”ni müəyyən etdi. Sözsüz ki, irəlidə Azərbaycanın görəcəyi işlər var. İlk növbədə, Azərbaycanın ərazi bütövlüyünün təmin olunması məsələsi bizim qarşımızda duran ən əsas amildir. Bununla bağlı Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının dörd qətnaməsi var. Avropa Şurası Parlament Assambleyasının, Avropa Parlamentinin, İslam Əməkdaşlıq Təşkilatının və digər beynəlxalq təşkilatların qəbul etdiyi qərarlar çox təəssüf ki, bu günə qədər hələ də yerinə yetirilməyib. Dövlətimizin başçısının qeyd etdiyi kimi, çox təəssüf ki, bir sıra hallarda beynəlxalq hüquq işləmir. Belə çıxır ki, beynəlxalq hüquq güc hüququdur. Yəni, kimin gücü varsa, o da haqlıdır və kimin gücü varsa, o nə istəyirsə edir. Əgər dünya güc ilə idarə olunacaqsa, onda beynəlxalq hüquq nəyə lazımdır? Beynəlxalq hüququn normaları kimə lazımdır? BMT-nin Nizamnaməsi kimə lazımdır? Amma bu reallıqla barışmaq lazımdır. Reallıq gücdür. Ona görə də dövlətimizin başçısının vurğuladığı kimi, Azərbaycan gündən-günə gücünü daha da artırmalıdır. Çox təəssüf ki, dünyada beynəlxalq hüquqdan çox gücə hörmət edirlər. Buna görə biz daha da güclü olmalıyıq.

# Bahar Muradova: “Prezidentin ölmüş və itkin düşmüş hərbçilərin ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı fərmanı çox əlamətdar haldır”



Prezident İlham Əliyevin ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı fərmanı çox əlamətdar haldır. SİA-nın məlumatına görə, Milli Məclisin vitse-spikeri, İnsan hüquqları komitəsinin sədri Bahar Muradova komitənin dünən keçirilən iclasında deyib. B.Muradova bildirib ki, bu məsələ həm parlamentin, həm də vətəndaş cəmiyyətinin gündəliyində idi: “Cənab Prezident bu məsələni çox asanlaşdırdı. Biz parlament olaraq düşünürdük ki, mövcud qanun layihəsinə müəyyən dəyişikliklər etməklə bunu həyata keçirə bilərik, lakin cənab Prezidentin Fərmanı bu məsələni yoluna qoydu”.

Vitse-spiker bildirib ki, bu fərman Azərbaycan vətəndaşına, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda həyatını qurban vermiş, sağlamlığını itirmiş insanlara olan münasibətin bir göstəricisidir.

Qeyd edək ki, Prezident İlham Əliyev ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı fərman imzalayıb. Sənədə əsasən, 1997-ci il avqustun 2-dək Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların (bundan sonra - hərbi qulluqçuların) vərəsələrinə bu Fərmanla müəyyənləşdirilmiş qaydada 11.000 (on bir min) manat məbləğində birdəfəlik ödəmə verilir.

# Yerevanda həbs olunan nümayişçilərin sayı 65 nəfərə çatıb

Ermənistan polisi aprelin 20-də Yerevan küçələrini blokadaya alan müxalifət fəallarının həbsini davam etdirir. Son məlumata görə, həbs olunanların sayı 65 nəfərə çatıb. AZƏRTAC TASS informasiya agentliyinə istinadla xəbər verir ki, bu barədə güc strukturunun mətbuat xidməti məlumat yayıb. Ermənistan parlamentinin deputatı Edmon Marukyan jurnalistlərə bildirib ki, Vətəndaş Müqaviləsi partiyasının və parlamentdəki “Elk” (“Çıxış”) müxalifət fraksiyasının lideri, Nikol Paşinyanın oğlu - Aşot Paşinyan da həbs olunanlar arasındadır. Hazırda Yerevanda vəziyyət gərgin olaraq qalır, müxalifətin nümayişi davam edir.



# Milli Məclis komitələrinin birgə iclasında 16 məsələyə baxılıb



Aprelin 20-də Milli Məclisin müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsi ilə ictimai birliklər və dini qurumlar komitəsinin birgə iclası keçirilib. AZƏRTAC xəbər verir ki, Milli Məclis sədrinin birinci müavini, parlamentin müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov gündəlikdəki məsələlər barədə məlumat verib.

İclasda İnzibati Xətalar, Cinayət, Əmək, Miqrasiya məcəllələrində, “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında”, “Siyasi partiyalar haqqında”, “Həmkarlar İttifaqları haqqında”, “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında”, “Telekommunikasiya haqqında”, “Xidməti və mülki silah haqqında”, “Üzümçülük və şərabçılıq haqqında”, “Sərbəst toplaşmaq azadlığı haqqında”, “Yol hərəkəti haqqında”, “Kütləvi informasiya vasitələri haqqında”, “Televiziya və radio yayımı haqqında”, “Müdafiə haqqında” qanunlarda dəyişikliklər edilməsi barədə qanun layihələri müzakirə olunub. Qeyd edilib ki, təklif olunan dəyişikliklər texniki xarakter daşıyır. Deputatlar gündəlikdəki məsələlər barədə fikir və təkliflərini səsləndiriblər. Müzakirə olunan layihələr Milli Məclisin plenar iclasına tövsiyə edilib.

# Bəhruz Quliyev: “İlham Əliyevin seçkilərdə inamlı qələbəsi xalqımızın son 15 ildə görülən işlərə verdiyi ən real qiymətdir”

***Hakimiyyətin mənbəyi xalqdır və bu amil özünü xalq-iqtidar birliyində təsdiq edir. Prezident İlham Əliyev aprelin 18-də andiçmə mərasimində daim xalqın dəstəyini hiss etdiyini vurğuladı və ona göstərilən etimada görə Azərbaycan xalqına təşəkkür etdi. Azərbaycan xalqı dövlətimizin başçısı İlham Əliyevi özünə alternativsiz lider olaraq qəbul edir.***



Bu fikirləri AZƏRTAC-a açıqlamasında “Səs” Media Holdinqin rəhbəri, siyasi ekspert Bəhruz Quliyev bildirib. Bəhruz Quliyev qeyd edib ki, Azərbaycan xalqı aprelin 11-də Prezident İlham Əliyevə səs verməklə inkişafa, sabitliyə, təhlükəsizliyə, tərəqqiyə səs verdi. Bu, Azərbaycan xalqının iradəsinin bariz göstəricisidir. Verilən hər bir səs, göstərilən dəstək ötən 15 ildə görülən işlərə ən real qiymətdir. Bu illər ərzində Azərbaycan istər regionda, istərsə də beynəlxalq aləmdə apardığı müstəqil siyasətlə lider dövlətə çevrilib. Əldə edilən hər bir nailiyyətin arxasında Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasət və bu siyasətin uğurlu davamı dayanır. Prezident İlham Əliyev andiçmə mərasimindəki nitqində bu məsələyə də toxunaraq bildirdi ki, O, Heydər Əliyev yoluna sadiq qalacaq. Onun yolu yeganə düzgün yoldur və Azərbaycanın müstəqillik tarixi bunun əyani sübutudur.

Bəhruz Quliyev bildirib ki, güclü dövlətin təməlində güclü iqtisadiyyat dayanır və iqtisadi potensialın artması vətəndaşların rifah halının da daha da yaxşılaşmasına xidmət edir. Artıq Azərbaycan dünyada təşkilatçı və təşəbbüskar ölkə olaraq qəbul edilir. Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən layihələrin önəmini həmin layihələrdə çoxsaylı ölkələrin iştirak etmək marağından görmək olar. İstər neft, istərsə də qeyri-neft sektorunda ölkəmiz liderlik mövqeyini qoruyub saxlayır. Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən hər bir layihə, nəticə etibarilə, ölkəmizin və xalqımızın inkişafı üçün prioritet olaraq götürülür. Ona görə də iqtisadi uğurlar öz ardıcıllığı ilə bilavasitə sosial sahəyə doğru yönəlir. Dövlətimizin başçısı dəfələrlə bəyan edib ki, onun siyasətinin mərkəzində insan amili dayanır və bu baxımdan, Azərbaycanda sosial siyasət xalqın firavanlığı istiqamətində müəyyənləşdirilir. Prezident İlham Əliyevin imzaladığı Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında Fərman bunun daha bir təsdiqidir. Xüsusilə vurğulamaq lazımdır ki, bu, Prezidentin andiçmə mərasimindən və səlahiyyətlərini icra etməyə başladıqdan sonra imzaladığı ilk sənəddir.

“Səs” Media Holdinqin rəhbəri Azərbaycanın apardığı müstəqil siyasət nəticəsində daha böyük uğurların əldə ediləcəyinə əmin olduğunu bildirib.

Ekspert açıqlamasında son günlər Ermənistanda baş verən xalq etirazına da toxunub və bildirib ki, ortadakı fərq göz önündədir. Ermənistanda xalq əli qana bulaşmış Serj Sarkisyan rejimindən canını qurtarmağa çalışır. Ermənistan Azərbaycana qarşı yürütdüyü işğalçılıq siyasəti nəticəsində ötən illərdə həyata keçirilmiş və qarşıdakı illərdə reallaşdırılacaq bütün önəmli regional, beynəlxalq layihələrdən kənarda qalıb. Ermənistan dövləti və xalqı təcrid olunmuş vəziyyətdədir. Ermənistan dövlətinin başçısının da vurğuladığı kimi, dalana dirənib. Azərbaycan Prezidenti nitqində də vurğuladı ki, Ermənistanı bütün regional layihələrdən təcrid etmişik və bu siyasət öz nəticələrini verir.

“Ermənistandan fərqli olaraq Azərbaycanda isə sabitlik, inkişaf hökm sürür, hakimiyyət və xalq vəhdəti mövcuddur. Xalq-iqtidar birliyi kontekstində mövcud olan təhlükəsizlik və sabitlik Azərbaycanın liderlik mövqeyini bundan sonrakı illərdə də möhkəmləndirəcək. Müstəqil dövlətin əsas elementlərindən biri də məhz bu amildir”, - deyə B.Quliyev bildirib.




## Tanınmış şairə Sona Vəliyevanın “Qar ətri” kitabı ingilis dilində işıq üzü görüb

Bakıda “Vektor” Beynəlxalq Nəşrlər Evi tanınmış Azərbaycan şairəsi Sona Vəliyevanın “Qar ətri” (The Smell of Snow) şeirlər kitabını ingilis dilində çap edib. Şeir mətnlərini ingilis dilinə filologiya üzrə fəlsəfə doktoru Kamran Nəzirli çevirib. Kitabın redaktoru Henri Braundur. AZƏRTAC xəbər verir ki, topluya şairənin 63 şeiri daxil edilib. Kitab dörd bölmədən ibarətdir - giriş, ev, sevgi və təbiət. Topluya “Ön söz” yazan tərcüməçi deyir: “Qar ətri” kitabı müasir Azərbaycan poeziyasının (XXI əsr) istedadlı nümayəndələrindən biri olan Sona Vəliyevanı ingilisdilli oxucularla tanış etmək məqsədi daşıyır. Kitab, həmçinin ingilis dilində müasir Azərbaycan şeiri ilə maraqlanan insanlar üçün də faydalı olacaq. Bu iki kateqoriyadan olan oxucuları nəzərə alaraq, mən şairənin ən yaxşı şeirlərini seçdim və onları şərhlər və izahlarla birlikdə kitaba daxil etdim, çalışdım ki, şərhlərdəki informasiya yükü bir qədər çox olsun”.

“Ön söz”də daha sonra deyilir ki, Sona Vəliyevanın şeirlərində qaldırılan geniş məsələlər, mövzu zənginliyi ciddi sosial və poetik çağırışlar vəd edir. Forma və məzmun yeniliyi, canlı, tutumlu misralar, qafiyəsiz bəndlər... bütün bunlar yeni nəsil Azərbaycan şairlərinin, o cümlədən Sona Vəliyevanın yaradıcılığında nəzərəçarpan xarakterik cəhətlərdir.

Kitaba şairənin müxtəlif illərdə yazdığı əsasən sərbəst şeirləri daxil edilib. Əsas mövzular ev, sevgi, təbiət və sosial məsələlərlə bağlıdır. Onun şeirləri beynəlxalq dəyərlərə söykənir, bu şeirlərdə, sözün böyük mənasında, sevgi var - Vətənə, evə, ailəyə, Allaha, təbiətə, dosta, azadlıq və tolerantlıq prinsiplərinə... Dünyaya sevgi sayılan dəyərlərin taleyi şairəni narahat edir.

# Hikmət Babaoğlu: “Prezidentin fərmanı bundan sonra atılacaq addımların xəbərçisidir”

***“Azərbaycanda xüsusi təbəqə hesab edilən şəhid ailələrinin problemlərinin həlli, onlara diqqət və qayğının göstərilməsi daim Azərbaycan Prezidentinin siyasətinin əsas prioritetlərindən birini təşkil edir. Uzun müddətdir bu hərbi əməliyyatlar zamanı həlak olan və itkin düşən şəxslərin ailələri mövcud vəziyyətlə bağlı kompensasiya gözləyirdilər.***



Bu baxımdan Dövlət başçısının fərmanı təkcə bu kateqoriyadan olan insanların sosial problemlərinin həlli ilə bağlı deyil, eyni zamanda ölkəmizdə vətənpərvərliyin, mənəvi dəyərlərin yüksəlməsi, həmçinin hazırda sərhədlərimizi müdafiə edən əsgərlərimiz və onların yaxınlarının əhval-ruhiyyəsinin artırılması baxımından da əhəmiyyətlidir”. Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı, “Yeni Azərbaycan” qəzetinin baş redaktoru Hikmət Babaoğlu deyib.

Deputat bildirib ki, adətən bu tipli qərarlar seçki ərəfəsində alınır. Onun sözlərinə görə, lakin Azərbaycan Prezidenti məhz seçkilərdən sonra belə bir fərman imzalamaqla bir daha göstərdi ki, ölkəmizdə şəhidlərə və onların ailələrinə, Qarabağ veteranlarına olan münasibət hansısa kampaniya ilə bağlı deyil, ümumilikdə Dövlət başçısının, dövlətimizin məqsədyönlü, düşünülmüş və ardıcıl siyasətidir. “Düşünürəm ki, bu, Azərbaycanda hərbi vətənpərvərlik ruhunun daha da artmasına kömək edəcək bir qərardır. Hər şeydən öncə biz bilirik ki, bu qərarların arxasında maliyyə vəsaitləri şərti var. Əgər Azərbaycanın dövlət büdcəsi buna imkan verməsə, iqtisadiyyatımız inkişaf etməsə bu cür addımlar atmaq mümkün olmaz. Dünyada gedən iqtisadi böhranlara baxmayaraq, Azərbaycan Prezidentinin 2014-cü ildən sonra iqtisadi islahatlarla bağlı atdığı addımlar öz nəticəsini verib. Azərbaycanın büdcəsində kəsir yoxdur. Ölkəmizin büdcəsi bu cür problemləri həll edəcək qədər güclü büdcədir”, - deyə H.Babaoğlu qeyd edib. Bu cür addımların Azərbaycanın təhlükəsizliyinin təmin olunması baxımından da vacib olduğunu deyən Milli Məclisin deputatı söyləyib ki, bütövlükdə bu qərar Azərbaycan prezidentinin xüsusi diqqət tələb edən kateqoriyaya aid olan insanlara olan münasibətinin bir daha göstəricisidir: “Bu, həm də bundan sonra atılacaq addımların xəbərçisidir. O mənada ki, 2018-ci il prezident seçkilərindən sonra Dövlət başçısı seçilən İlham Əliyevin ilk fərmanı məhz sosial problemlərin həlli ilə bağlı oldu. Biz buna istinadən söyləyə bilərik ki, önümüzdəki 7 il müddətində bu vaxta qədər olduğu kimi sosial qayğıya ehtiyacı olan insanların problemlərinin həlli daima Azərbaycan Prezidentinin diqqət mərkəzində olacaq”.

## Millət vəkili: “Azərbaycan dövləti öz vətəndaşının qayğısına qalır”



“Azərbaycan Prezidenti İlham Əliyevin andiçmə mərasimindən sonra imzaladığı ilk Fərman “Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” Fərman oldu. Ölkədə təqribən 13 minə qədər bu statusda olan şəxs var. Büdcədən təqribən 100 milyondan bir qədər çox vəsait buna xərclənəcək”. Bunu SİA-ya açıqlamasında millət vəkili Aydın Mirzəzadə deyib.

Deputatın sözlərinə görə, cənab Prezidentin bu Fərmanı imzalaması şəhid ailələri və ona bərabər tutulan şəxslərin ailələrinin sosial vəziyyətinin daima diqqətdə saxladığına bir daha bariz nümunədir: “Qeyd edim ki, bundan əvvəl də bu insanlara böyük diqqət yetirilirdi. Onların dövlət hesabına mənzillə təmin edilməsi, övladlarının Ali məktəbdə təhsil haqlarının ödənilməsi, sosial məsələlərinin yerli hakimiyyət orqanları tərəfindən daima diqqətdə saxlanılması və həll edilməsi bu qəbildən olan məsələdir. Prezidentin siyasətində ilk növbədə hər bir vətəndaşa, əsasən də diqqətə ehtiyacı olan əsas təbəqəyə daima diqqət edəcəyi artıq gün kimi aydındır. Məhz bu fəaliyyətdir ki, seçkidə cənab Prezident 86 faizə qədər səs toplaya bildi. İqtisadiyyatın güclənməsi, təhlükəsizliyimizin təmin edilməsi, sosial məsələlərlə ciddi surətdə məşğul olmağa imkan verir. Dünənki Fərman bir daha göstərdi ki, Azərbaycan dövləti öz vətəndaşının qayğısına qalır və büdcəyə gələn gəlirlər artdıqca bundan da böyük addımlar atılacaqdır”.

# YAP Səbail rayon təşkilatı seçkilərdə fəallıq göstərənləri təltif etdi

Dünən YAP Səbail Rayon təşkilatında prezident seçkilərinin yekunu ilə bağlı tədbir keçirilib. SİA-nın xəbərinə görə, tədbirdə çıxış edən təşkilat sədri, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev seçkilərin uğurlu keçirilməsi haqqında fikirlərini bildirərək qeyd edib ki, seçkilərin nəticələri gözlənilən idi. Onun sözlərinə görə, demokratik cəmiyyətdə hər bir namizədin arxasında təşkilatlanmış qüvvə dayanır: "Ölkə başçısının arxasında da Yeni Azərbaycan Partiyası (YAP) dayanıb. Partiyamız bir daha nəyə qadir olduğunu sübut etdi". Ölkəmizdə seçki prosesinin ildən-ilə təkmilləşdiyini deyən deputat söyləyib ki, 11 aprel seçkilərində seçici fəallığı çox yüksək idi: "Məntəqələrdə növbələr var idi. Beynəlxalq müşahidəçilər də bu hala təəccüblə yanaşırdılar. Azərbaycan xalqı dünyaya seçki mədəniyyəti nümayiş etdirdi. Seçkinin demokratik əsaslara uyğun şəkildə keçirilməsi ilə bağlı səslənən fikirlər bizə qürur verir".



Təşkilat sədri Azərbaycanın son 15 ildə keçdiyi böyük inkişaf yoluna nəzər salaraq söyləyib ki, bu müddət ərzində ölkəmiz sürətlə inkişaf edən ölkəyə çevrilib: " Dünyada geosiyasi vəziyyətin gərgin olmasına baxmayaraq Azərbaycan stabillik adasına çevrilib. Ölkəmiz əsl demokratik dəyərlərə əsaslanan respublika kimi inkişaf edir. Azərbaycan bir çox amillərə görə dünyaya nümunədir. Bunların arasında tolerantlıq, multikulturalizm dəyərlərini sadalaya bilərik.

Tədbirdə çıxış edən Milli Məclisin deputatı Hadı Rəcəbli YAP Səbail Rayon təşkilatının seçkilərlə bağlı gördüyü işləri yüksək qiymətləndirərək onlara gələcək fəaliyyətlərində uğurlar arzu edib. Milli Məclisin üzvü Aydın Mirzəzadə çıxışında qeyd edib ki, builki seçkilərdə təbliğat-təşviqat aparmağa, insanları seçkiyə çağırmağa ehtiyac yox idi: "Çünki hər kəsin seçimi bəlli idi. Hər bir insan seçki gününü səbirsizliklə gözləyirdi. Azərbaycan seçicisi yaxşı bilirdi ki, Prezident İlham Əliyevə səs verməklə ölkəmiz gündən günə daha inkişaf edəcək, Azərbaycanın uğurları daha da artacaq".

Tədbirin davamında çıxış edən Səs Media Qrupun rəhbəri Bəhruz Quliyev söyləyib ki, xalq bütün dünyanın gözü qarşısında öz seçimini edərək iradəsini ortaya qoydu. Azərbaycan prezidentinin andiçmə mərasimində çıxışına toxunan B.Quliyev qeyd edib ki, Dövlət başçısı andiçmə mərasimində bildirdi ki, Azərbaycan xalqı sabitliyə inkişafa səs verib: "Ölkə başçısı çıxışında xalq iqtidar birliyinə də xüsusi toxunub. Həqiqətən də Azərbaycan xalqı aprelin 11-də sabitliyə səs verdi. Xoşbəxtliyimiz ondadır ki, bizim Prezidentimiz bizim liderimiz, liderimiz isə bizim prezidentimizdir. Xalq öz liderini çox sevir". Azərbaycanın sabit və təhlükəsiz ölkə olduğunu vurğulayan Səs Media Qrupun rəhbəri əlavə edib ki, ölkəmizin inkişafının kökündə məhz sabitlik, təhlükəsizlik dayanır. B.Quliyev çıxışının sonunda Azərbaycan xalqını Qələbə münasibətilə təbrik edib, Partiya liderinin işinə uğurlar arzu edib. Tədbirin sonunda Səbail rayonu üzrə seçkilərdə fəallıq göstərən partiya fəalları, deputat, təbliğat-təşviqat üzvləri, rayon idarə və təşkilatların nümayəndələri Yap Səbail Rayon təşkilatı tərəfindən fəxri fərmanla təltif olunublar.

# Seymur Orucov: "Gənclər üçün kifayət qədər əlverişli şərait yaradılıb"

"Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimində "ötən 15 il demokratik inkişaf baxımından çox uğurlu dövr olmuşdur" fikri çox düzgündür və reallığı əks etdirir". Bunu SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, hakim Partiyanın Gənclər Birliyinin sədri Seymur Orucov deyib.



YAP GB sədrinin sözlərinə görə, cənab Prezident düzgün olaraq qeyd etdi ki, müstəqillik yaşımız az olsa da, bizim keçdiyimiz yol bəzi dövlətlərin yüz ildə keçdiyi yola bərabərdir: "Xüsusilə də gənclər sektorunda gənclərə yaradılan bərabər şərait - onlara seçmək hüququnun verilməsi, Prezident və parlament seçkiləri ilə əlaqədar yaş həddinin 18 yaşa endirilməsi və gənclərin azad şəkildə Azərbaycan Respublikası Gənclər Fonduna müraciət etməsi, dövlət qulluğu məsələlərində şəffaflığın təmin edilməsi kimi və s. amillər təqdirəlayiq haldır. Artıq burada bir rəqabət yaranır. İstər hüquq-mühafizə orqanlarında, istərsə də digər orqanların hamısında gənclər üçün kifayət qədər əlverişli şərait yaradılıb. Eləcə də sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün bürokratik əngəllərin aradan qaldırılması və s. insanların demokratik mühitdə böyüməsinə, insan hüquq və azadlıqlarının bərabər rəqabət formasına gətirilməsində çox mühüm amillərdir. Azərbaycan bu sahədə çox böyük irəliləyişlər əldə edib. Ümumiyyətlə "ASAN" xidmət brendi adı altında da heç bir əngəl qoyulmadan vətəndaş öz haqqını, hüququnu müdafiə edə bilir".

# Beyləqanda "Milli təhlükəsizliyə əsas təhdidlərdən biri - dini radikalizm" mövzusunda seminar-müşavirə keçirilib





Aprelin 20-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Beyləqan rayonunda "Milli təhlükəsizliyə əsas təhdidlərdən biri - dini radikalizm" mövzusunda seminar-müşavirə keçirilib. Seminar-müşavirədə Baş Prokurorluq, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəhbər şəxsləri, eyni zamanda, bu qurumların İmişli, Saatlı, Sabirabad, Füzuli və Beyləqan rayonlarındakı yerli strukturlarının məsul nümayəndələri, prokurorlar, ziyalılar, dindarlar, ərazidəki N saylı hərbi hissənin zabit və əsgərləri iştirak ediblər.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül-çiçək dəstələri düzərək, xatirəsinə ehtiramlarını bildiriblər. Beyləqan rayon Mədəniyyət Mərkəzində keçirilən tədbirdə Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra DQİDK-nın sifarişi ilə çəkilmiş "Şəhadət" sənədli filmi nümayiş olunub. Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Abdullayev çıxış edərək, tədbirin əhəmiyyətindən danışıb. Bildirib ki, seminar-müşavirənin keçirilməsində əsas məqsəd Azərbaycanda dini ekstremizmə qarşı mübarizə sahəsində görülən işlərin və qarşıda duran vəzifələrin müzakirə olunmasıdır.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərov "Şəhadət" filminin süjet xətti, Vətən uğrunda canlarından keçmiş şəhidlərimiz və radikal qruplaşmaların, qeyri-qanuni hərbi birləşmələrin tərkibində vuruşaraq öldürülən insanlar haqqında danışıb. Bildirib ki, "Şəhadət" sənədli filmi Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin xatirəsinə həsr olunub. Ekran işində Vətən uğrunda şəhadətə qovuşmuş qəhrəmanlarla yanaşı, dini fanatizmin və radikalizmin təsirinə məruz qalmış, bir sıra xarici ölkələrdəki ekstremist-terrorçu silahlı birləşmələrin tərkibində döyüşmüş şəxslərdən bəhs edilir. Filmdə Vətənin müqəddəsliyi, onun müdafiəsinin vacibliyi, şəhidlik zirvəsinin ucalığı təbliğ olunur, digər tərəfdən isə radikalizmin törətdiyi fəsadlar tamaşaçılara təqdim edilir. Dini radikalizmin mahiyyəti, yaranma səbəbləri, fəsadlarından bəhs edən S.Heydərov qeyd edib ki, radikalizmin və ekstremizmin təsirinə düşməyin başlıca səbəblərindən biri vətənpərvərlik hissinin zəif olmasıdır. Ona görə gənclərdə vətənpərvərlik hissinin gücləndirilməsi, onları yad təsirlərdən qorumaq üçün hər birimiz çalışmalıyıq.

Komitə sədrinin müavini çıxışında dünyada dini zəmində baş verən münaqişələrdən, Yaxın Şərqdə dini radikalizm və ekstremizmin acı nəticələrindən, radikal cərəyanların törətdiyi fəsadlardan söz açıb. Bildirib ki, dünya güclərinin hədəfi İslam ölkələridir. Azərbaycan da bu münaqişələrdən sığortalanmayıb. Çünki Azərbaycan dünya güclərinin maraqlarının toqquşduğu coğrafi məkanda yerləşir. Bu gün Azərbaycanda da məzhəb ayrıseçkiliyi salmaq istəyirlər. Lakin buna baxmayaraq, ölkəmizdə dini durum tam sabitdir.

Azərbaycanda mövcud olan ictimai-siyasi sabitlikdən, əmin-amanlıqdan, dövlət-din münasibətlərinin sağlam şəkildə qurulmasından danışan S.Heydərov ölkəmizdəki multikultural və tolerant dəyərlərin dünya üçün örnək olduğunu vurğulayıb. Qeyd edib ki, ölkəmizdə dini etiqad azadlığı tam təmin olunub. Azərbaycanda olan dini etiqad azadlığı, dövlət-din münasibətləri dünyaya bir nümunədir.

Prezident İlham Əliyevin Sərəncamı ilə təsis edilmiş Azərbaycan İlahiyyat İnstitutunun əhəmiyyətindən bəhs edən DQİDK-nın sədr müavini ali məktəbdə dövlətçiliyə, milli-mənəvi dəyərlərimizə bağlı, vətənpərvər, yüksək ixtisaslı kadrların hazırlanacağını bildirib. Səyavuş Heydərov Prezident seçkilərindən sonra dövlət başçısının Hacı Cavad məscidinin yeni binasının açılışında iştirak etməsini milli-mənəvi, dini dəyərlərimizə verilən yüksək diqqətin daha bir nümunəsi adlandırıb. Tədbirdə, həmçinin Baş Prokurorluğun nümayəndəsi Alim Cəbrayılov, Daxili İşlər Nazirliyinin məsul əməkdaşı Oqtay Tağıyev mövzu ilə bağlı çıxış edib, təmsil etdikləri qurumların dini radikalizmlə mübarizə istiqamətində həyata keçirdikləri profilaktik və inzibati tədbirlərdən söz açıblar.

Sonda çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin bölgə üzrə qazisi Vadar Əliquliyev bildirib ki, ölkəmizdə dindarlara dövlət səviyyəsində daim diqqət və qayğı göstərilir, yeni məscidlər tikilir və ya təmir edilir. Seminar-müşavirə mövzu ətrafında fikir mübadiləsi ilə davam edib. Sonda iştirakçılara DQİDK tərəfindən çap olunan nəşrlər paylanılıb.

# Nəsimi rayonunda qanvermə aksiyası keçirildi

*Aksiya YAP Nəsimi rayon təşkilatı tərəfindən görkəmli oftalmoloq-alim Zərifə xanım Əliyevanın xatirəsinə həsr olunmuş silsilə tədbirlərin davamıdır*





YAP Nəsimi rayon təşkilatı tərəfindən ənənəvi olaraq, görkəmli oftalmoloq-alim Zərifə xanım Əliyevanın xatirəsinə həsr olunmuş silsilə tədbirlər həyata keçirilir. Silsilə tədbirlərin davamı olaraq, dünən Səhiyyə Nazirliyinin Ə.Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfiziologiya İnstitutunda qanvermə aksiyası keçirildi. Aksiyada 150 nəfərdən çox könüllü iştirak edirdi.

Tədbirdə çıxış edən YAP Nəsimi rayon təşkilatının sədri, millət vəkili Məlahət İbrahimqızı rayon təşkilatı tərəfindən, ənənəvi olaraq, əməkdar elm xadimi, tibb elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü Zərifə xanım Əliyevanın xatirəsinə həsr olunmuş silsilə tədbirlər çərçivəsində qanvermə aksiyasının keçirildiyini və bu aksiyada rayon təşkilatının fəallarının yüksək həvəslə və könüllü olaraq iştirak etdiyini bildirdi. O, qana ehtiyacı olan insanların köməyinə çatmaq üçün bu nəcib və humanist xarakterli aksiyaya qoşulan iştirakçılara minnətdarlığını vurğuladı.

Rayon təşkilatının sədri Zərifə xanım Əliyevanın ömür yoluna qısa şəkildə nəzər salaraq, qaranlıq dünyalara şəfa verən fitri istedada malik novator alimin keçdiyi şərəfli həyat yolunun hər bir Azərbaycan vətəndaşı, hər bir alim və həkim üçün örnək, müdriklik məktəbi olduğunu qeyd etdi: "Zərifə xanım Əliyevanın oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar və yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsidir. Onun elmi, tibbi və pedaqoji fəaliyyəti, apardığı elmi- tədqiqatların yüksək səviyyəsi, ictimai fəallığı, pedaqoji istedadı, çoxillik elmi-tədqiqat işlərində böyük xidmətləri layiqincə qiymətləndirilib. Zərifə xanım Əliyevanın sovet dövründə aldığı mükafatlar Nobel mükafatına bərabərdir. Bu adların hər biri qürur və iftixar mənbəyidir".

Sonra qanvermə aksiyası başlandı.

Aksiyada iştirak edənlər qan xəstəliklərindən əziyyət çəkənlər üçün könüllü qan verməyin xeyirxah və savab iş olduğunu bildirdilər. Yığılan qan ehtiyatı yoxlanılaraq talassemiya, hemofiliya və digər qan xəstəliklərindən əziyyət çəkənlər üçün istifadə olunacaq.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Türkiyənin "Daily Sabah" qəzetində ermənilərin xalqımıza qarşı törətdikləri soyqırımları barədə məqalə dərc edilib

Türkiyənin "Daily Sabah" qəzetində Azərbaycanın bu ölkədəki səfiri Xəzər İbrahimin "Azərbaycanlıların soyqırımının 100 illiyi" sərlövhəli məqaləsi dərc edilib. AZƏRTAC xəbər verir ki, məqalə saxta "erməni soyqırımı" iddiası ilə davamlı olaraq çıxış edən təcavüzkar Ermənistanı, erməni millətçi dairələrini və onların havadarlarını tam şəkildə ifşa edir.



DAILY SABAH

OP-ED

CATEGORIES

Daily Sabah > Opinion > Op-Ed

Centennial of the Azerbaijani genocide

KHAZAR IBRAHIM

Published 12 hours ago

Over the past two centuries, our ancestors in the Southern Caucasus and Asia Minor were constantly subjected to massacres and genocides as a result of persecution at the hands of Armenians. Starting in the 19th century, Armenian nationalists spread in the Southern Caucasus with the help of their supporters following their fabricated ideals to create a "Greater Armenia" in the region. As a result, local people were expelled from their homeland, and mass killings and destruction of their settlements and historical and religious monuments and cultural heritage took place. The four ethnic cleansings carried out by Armenians in the region in 1905 to 1907, 1918 to 1920, 1948 to 1953 and 1988 to 1989 show their true intentions.

To understand the causes of these events, we should consider the historical background of Armenian-Azerbaijani contradictions in the region. In order to reach a better understanding of its essence, we have to go back to the 18th and early 19th centuries, to the very origins of the conflict. The dismemberment of the Azerbaijani people and the division

Yazıda qeyd olunur ki, 1905-1907-ci, 1918-1920-ci, 1948-1953-cü illərdə və 1988-ci ildən sonra bölgədə ermənilər tərəfindən həyata keçirilmiş soyqırımı və etnik təmizləmə əməlləri ermənilərin əsl xislətini göstərir. Ötən əsrin ilk illərindən başlayaraq erməni silahlı quldur dəstələrinin məqsədli şəkildə və ardıcıl olaraq xalqımıza qarşı törətdikləri cinayətləri diqqətə çatdıran məllif Qafqaz İslam Ordusunun Bakını erməni-daşnak işğalından təmizləmək istiqamətindəki tarixi rəşadətindən də bəhs edir. Məqalə "Daily Sabah" qəzetinin elektron versiyasında da yayılıb. Qeyd edək ki, Türkiyənin diplomatik dairələri, ali məktəbləri və araşdırma mərkəzləri bu nəşrə abunədir.

# Avropa azərbaycanlıları Ermənistanın təxribatları ilə əlaqədar beynəlxalq təşkilatlara bəyanat ünvanlayıblar

Avropa Azərbaycanlıları Konqresi (AAK) Dağlıq Qarabağda qoşunların təmas xəttində son günlər Ermənistan tərəfindən törədilən təxribatla bağlı Avropadakı soydaşlarımız adından BMT-yə, ATƏT-ə, Minsk qrupunun həmsədr ölkələrinə bəyanat ünvanlayıb. Bu barədə AZƏRTAC-a Diaspora İş üzrə Dövlət Komitəsindən məlumat verilib. Bəyanatda bildirilir ki, Azərbaycan torpaqlarını işğal etmiş Ermənistan ordusu qoşunların təmas xəttində təxribatların sayını artırıb və bu, Avropada yaşayan azərbaycanlıları ciddi narahat edir. Aprelin 18-də Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kənd sakini, 27 yaşlı Rahim Hacıyev öz əkin sahəsində olarkən Ermənistan ordusunun bölmələri tərəfindən açılan atəş nəticəsində güllə yarası alıb. Bu hadisə bizi - Avropa Azərbaycanlıları Konqresini, Avropada yaşayan azərbaycanlıları dərindən sarsıdıb. Ermənistan silahlı qüvvələrinin Azərbaycanın dinc əhalisinə və mülki obyektlərinə yönəlmiş artilleriya zərbələri sübut edir ki, Ermənistan dövləti təcavüzkar siyasəti ilə beynəlxalq hüquq normalarına riayət etməyərək, beynəlxalq humanitar hüququn və insan haqlarının, xüsusilə 1949-cu il Cenevrə konvensiyaları və ona 1 saylı Əlavə, həmçinin Uşaqların hüquqlarına dair və İnsan hüquqlarının müdafiəsi və fundamental azadlıqlara dair Konvensiyanı ciddi şəkildə pozmaqda davam edir.

Dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara, ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinə, BMT-yə müraciət edən soydaşlarımız onları israrla təcavüzkara qarşı konkret addımlar atmağa, beynəlxalq hüquq normalarına uyğun sərt sanksiyalar tətbiq etməyə çağırır. Bəyanatda, həmçinin bildirilir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesində vasitəçilik missiyasını üzərinə götürmüş ATƏT-in Minsk qrupunun həmsədr ölkələri - ABŞ, Fransa və Rusiya susmaqda davam edirlər. Beynəlxalq ictimaiyyətin erməni vəhşiliyinə göz yumması təcavüzkarın əl-qolunu daha da açır, törətdiyi cinayətlərin cəzasız qalması Ermənistan ordusunun Azərbaycanın daha neçə-neçə dinc sakinini qətlə yetirməsinə səbəb olur.

# Sədaqət Vəliyeva: "Bu Fərman Prezidentimizin siyasətinin mərkəzində Azərbaycan vətəndaşının dayanmasının daha bir sübutudur"



***Azərbaycan Prezidenti İlham Əliyev hər bir vətəndaşın, imtiyazlı təbəqənin, Vətən qarşısında xidmətləri olan şəxslərin sosial məsələlərinin həllini prioritet vəzifə hesab edir. Dövlətimizin başçısının "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanı bu istiqamətdə atılmış mühüm addımlardan biridir.***

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri Sədaqət Vəliyeva deyib. Sədaqət Vəliyeva bildirib ki, bu Fərman Prezident İlham Əliyevin andiçmə mərasimindən və səlahiyyətlərini icra etməyə başladıqdan sonra imzaladığı ilk sənəddir. Bu sənəd dövlətimizin başçısının vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi, Azərbaycanın ərazi bütövlüyünün qorunması üçün canlarını qurban vermiş hərbçilərimizin ailələrinə, vərəsələrinə diqqət və qayğısının bariz nümunəsidir. Sözügedən Fərmana əsasən, 1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə 11 min manat ödəmə veriləcək. Bu, Azərbaycan dövlətinin ölkənin ərazi bütövlüyü uğrunda həlak olmuş və itkin düşmüş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirdiyini təsdiqləyir. Azərbaycan dövlətinin həyata keçirdiyi ardıcıl sosial siyasət daha da gücləndiriləcək.

"Prezident İlham Əliyevin qərarları, atdığı addımlar sosial sifarişdir", - deyən Sədaqət Vəliyeva əlavə edib ki, imzalanmış Fərman dövlətimizin başçısı tərəfindən həyata keçirilən siyasətin mərkəzində Azərbaycan vətəndaşının dayanması amilinin təcrübədə yüksək səviyyədə reallaşmasının əyani sübutudur.

# Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar real nəticələrini verməkdədir



## *“Azərsu” Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynovun yap.org.az-a müsahibəsi*

***- Qorxmaz müəllim, əhalinin içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılması ölkə rəhbərliyi tərəfindən prioritet vəzifə kimi müəyyənləşdirilib. Son illər bu sahədə mühüm layihələr həyata keçirilib. Bu baxımdan yola saldığımız 2017-ci ili necə qiymətləndirirsiniz?***

- Ölkəmizdə bütün sahələrdə əldə olunan nailiyyətlərin kökündə düşünülmüş siyasət, möhkəm siyasi iradə və xalq-dövlət birliyinin real əsasları dayanır. Bu baxımdan 2017-ci ildə qazanılmış uğurlar ölkəmizin perspektiv inkişafı üçün etibarlı zəmin yaradır. Yola saldığımız il tarixdə köklü iqtisadi islahatlar ili kimi qaldı. Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrində nəzərdə tutulan tədbirlərin ardıcıl və kompleks şəkildə həyata keçirilməsi makroiqtisadi sabitlik və dinamik inkişaf üçün əsaslı zəmin yaratdı. Möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar real nəticələrini verməkdədir.

Əhalinin fasiləsiz və keyfiyyətli içməli su ilə təmin edilməsi, onlara göstərilən kanalizasiya xidmətlərinin yaxşılaşdırılması istiqamətində dövlət başçısının tapşırıqlarına uyğun olaraq 2017-ci ildə “Azərsu” Açıq Səhmdar Cəmiyyəti tərəfindən kompleks tədbirlər həyata keçirilib. Bakı şəhəri və onun qəsəbələrində, rayon mərkəzlərində və kəndlərdə mühüm layihələr icra olunub, mövcud kommunikasiyaların ahəngdar işinin təmin olunması istiqamətində tədbirlər davam etdirilib.

Ötən ilin statistik göstəriciləri də fəaliyyətimiz haqqında dolğun fikir yürütməyə əsas verir. 2017-ci ildə 108 km-i magistral olmaqla 1366 km su, 382 km kanalizasiya kollektoru və xətləri, 2 içməli və tullantı sutəmizləyici qurğu, 10 su anbarı tikilib, 22 subartezian quyusu qazılıb, 6 nasos stansiyası və 105 min ədəd sayğac quraşdırılaraq istismara verilib.

Həyata keçirilən tədbirlər nəticəsində Bakı şəhəri və ətraf qəsəbələrdə, eləcə də regionlarda 116 min nəfər ilk dəfə mərkəzləşdirilmiş qaydada içməli su ilə təmin olunub, 132 min nəfərin su təchizatı fasiləsiz rejimə keçirilib. Bununla da, mərkəzləşmiş qaydada fasiləsiz içməli su ilə təmin olunan əhalinin xüsusi çəkisi 66,9 faizə yüksəlib.

***- Cənab Prezidentin iştirakı ilə “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfrans keçirildi. Regional proqramların icrasına başlanan dövrdən indiyədək ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi həyatında mühüm hadisələr baş verib. Ölkə iqtisadiyyatında qazanılan uğurlar su təchizatı və kanalizasiya sektorunda özünü necə büruzə verib?***

- Məlum olduğu kimi, su təchizatı və kanalizasiya sektoru çox vacib sosial sahə olmaqla yanaşı, böyük investisiya tutumludur. Bunu nəzərə alan cənab Prezident İlham Əliyev ölkə əhalisinin fasiləsiz və keyfiyyətli içməli su ilə təmin olunmasını, həmçinin kanalizasiya xidmətlərinin yaxşılaşdırılmasını mühüm vəzifə kimi qarşıya qoyub. Dövlət başçısının tapşırıqlarına uyğun olaraq həm Bakı şəhəri və Abşeron yarımadasında, həm də regionlarda genişmiqyaslı su və kanalizasiya layihələri icra edilir. Ötən dövrdə su və kanalizasiya layihələrinin icrasına başlanan 50 şəhərin 23-də su və kanalizasiya şəbəkələrinin, 10-da isə su şəbəkəsinin tikintisi yekunlaşıb. Yeri gəlmişkən, bu yaxınlarda ölkə rəhbərliyinin iştirakı ilə Mingəçevir şəhərinin su təchizatı sistemlərinin istismara verilməsi mərasimi keçirildi.

2004-2017-ci illərdə su təchizatı və kanalizasiya sektorunda əldə edilən nailiyyətlərə gəlincə deyə bilərik ki, həyata keçirilən müxtəlif dövlət proqramları çərçivəsində 9230 km içməli su xətti çəkilib, ümumi məhsuldarlığı sutkada 689 min kubmetr olan 5 sutəmizləyici qurğu, ümumi həcmi 530 min kubmetr olan 230 su anbarı tikilib, 308 artezian və subartezian quyusu qazılaraq istismara verilib.

Hesabat dövründə tullantı sularının axıdılması sahəsində də mühüm işlər görülüb. Belə ki, son 14 ildə 3540 km kanalizasiya və yağış suları xətləri çəkilib, emal gücü sutkada 126 min kubmetr olan 3 tullantı sutəmizləyici qurğu tikilib, eyni zamanda 2 qurğuda əsaslı yenidənqurma işləri aparılıb.

Abonentlərin sayı bu ilin əvvəlinə 2004-cü illə müqayisədə 530 min artaraq 1 milyon 410 minə çatıb, eyni zamanda 1 milyondan artıq sayğac quraşdırılıb. Müqayisə üçün bildirək ki, 2004-cü ildə fasiləsiz içməli su ilə təmin olunanların xüsusi çəkisi ölkə üzrə 26 faiz olduğu halda, artıq bu göstərici 67 faizə çatıb. Bakı şəhəri üzrə isə fasiləsiz su təchizatı səviyyəsi 29 faizdən 81,5 faizə yüksəlib.

***- Əhalinin içməli su təchizatının yaxşılaşdırılmasının başlıca hədəfi etibarlı və məhsuldar su mənbələrinin yaradılmasıdır. Bu sahədə ”Azərsu” ASC tərəfindən Abşeron yarımadası və regionlarda icra olunan layihələr barədə məlumat verməyinizi xahiş edirik.***

- Bəli, etibarlı su mənbələrinin yaradılması icra olunan layihələrin səmərəliliyinin əsas şərtidir. Qlobal istiləşmə, yağıntıların miqdarının azaldığı bir vaxtda elə mənbələr seçilməlidir ki, onlar uzun müddət istismar olunsun və üstəlik keyfiyyətli ehtiyatlara malik olsun. Bu baxımdan, Oğuz-Qəbələ-Bakı, Külüllü mənbələrinin, Ceyranbatan ultrasüzgəcli sutəmizləyici qurğular kompleksinin əhəmiyyəti xüsusi vurğulanmalıdır. 2007-2010-cu illərdə tikilmiş müstəqil Azərbaycanın ən böyük yerli infrastruktur layihəsi olan Oğuz-Qəbələ-Bakı su kəmərinin istismara verilməsilə Bakı şəhəri və Abşeron yarımadasının içməli su təchizatında stabillik təmin olunub.

2015-ci ilin oktyabrında işə salınmış və ən son texnologiya əsasında yaradılmış Ceyranbatan ultrasüzgəcli sutəmizləyici qurğular kompleksi - hansı ki, məhsuldarlığı saniyədə 6,6 kubmetr təşkil edir - və 84 km uzunluğunda Ceyranbatan-Zirə magistral su kəməri bu gün Abşeron yarımadasının böyük bir ərazisini yüksək keyfiyyətli içməli su ilə təmin edir. Bu qurğunun və infrastrukturun imkanlarından istifadə etməklə tarix boyu şirin su almayan Pirallahı, Zirə, Türkan və Qala qəsəbəsinə mərkəzləşdirilmiş qaydada içməli su verilib.

Məhz yeni yaradılmış bu 2 mənbə hesabına Bakı şəhəri və bütövlükdə Abşeron yarımadasının su təchizatında stabillik əldə olundu. Bu da öz növbəsində bizə imkan verdi ki, Kür sutəmizləyici qurğularında emal olunan suyun bir hissəsini uzun illərdir içməli su problemi ilə üzləşən Aran bölgəsinin ehtiyaclarının ödənilməsinə yönəldək. İçməli sudan əziyyət çəkən yaşayış məntəqələrinin su təminatına hesablanmış Şirvan-Muğan və Sabirabad-Saatlı su kəmərlərinin tikintisi də bu baxımından xüsusi əhəmiyyət daşıyır. 2012-ci ildə Prezident İlham Əliyev tərəfindən təməli qoyulan Şirvan-Muğan kəmərinin 107 km uzunluğunda Hacıqabul-Biləsuvar hissəsi qısa müddətdə tikilərək istismara verildi. Artıq Hacıqabul, Şirvan, Salyan və Biləsuvar şəhərlərinin sakinləri bu mənbədən keyfiyyətli su ilə təmin olunur. Gələcəkdə Neftçala şəhəri, həmçinin kəmərin marşrutu boyu yerləşən 121 kəndin sakinlərinin də bu layihədən faydalanması nəzərdə tutulur.

Kür sutəmizləyici qurğular kompleksindən Saatlı şəhərinə qədər 62 km uzunluğunda magistral su kəmərinin tikintisi isə 2014-cü ilin sonlarında yekunlaşıb, Sabirabad və Saatlı şəhərlərinə bu mənbədən suyun verilməsi təmin edilib. Ötən il bu mənbədən Saatlı və Sabirabad rayonlarının bəzi kəndlərinə də su verilib.

Mərkəzi Aran bölgəsinin sudan əziyyət çəkən yaşayış məntəqələrinin su təchizatına hesablanmış Külüllü mənbəyinin əhəmiyyəti xüsusi vurğulanmalıdır. Girdmançayın yatağında məhsuldarlığı saniyədə 450 litr olan mənbə yaradılıb və anbar kompleksi tikilib. Buradan Zərdab şəhərinə 72, Ucar şəhərinə 57, Kürdəmir şəhərinə 27, Ağsu şəhərinə isə 25 km uzunluğunda magistral kəmərlər çəkilib. Bu şəhərlərə, həmçinin magistral kəmərlər üzərində yerləşən bəzi kəndlərə içməli suyun verilməsi təmin edilib.

Mingəçevir və Yevlax şəhərlərini keyfiyyətli içməli su ilə təmin etmək məqsədilə məhsuldarlığı sutkada 55 min kubmetr olan müasir sutəmizləyici qurğu istismara verilib. Artıq Mingəçevir sakinləri yeni qurğu və şəbəkədən içməli su ilə təmin edilir. Yaxın gələcəkdə buradan Yevlax şəhərinə və ətraf 8 kəndə də içməli suyun verilməsi təmin ediləcəkdir.

Gəncə şəhərinin içməli su təchizatının yaxşılaşdırılması məqsədilə Göygöl və Qızılqaya su mənbələrində tikinti işləri aparılıb, şəhərə uzunluğu 28,5 km olan magistral su kəmərləri çəkilib. Eyni zamanda Gəncə, Şəmkir, Samux şəhərlərinin və ətraf yaşayış məntəqələrinin içməli su təminatının yaxşılaşdırılması məqsədilə Şəmkirçay su anbarının imkanlarından istifadə etməklə yeni texnologiyaya əsaslanan məhsuldarlığı sutkada 140 min kubmetr olan sutəmizləyici qurğunun inşası davam etdirilir. Bu mənbədən Gəncə şəhərinə 27,5 km, Şəmkir şəhərinə isə 16,5 km uzunluğunda magistral su kəmərləri inşa edilib.

Hər birinin məhsuldarlığı sutkada 30 min kubmetr olan Xanbulançay və Quba sutəmizləyici qurğuları Lənkəran, Astara və Quba şəhərlərinin, həmçinin 50-dən artıq kənd və qəsəbənin içməli su təchizatının yaxşılaşdırılmasına hesablanmışdır. Ən son texnologiyaların tətbiqi ilə yaradılmış bu sutəmizləyici qurğular Azərbaycan vətəndaşlarının sağlam həyat tərzinə və sosial rifahının yüksəlməsinə hesablanmış layihələrdir. Ötən dövrdə Qusar, Şamaxı, Qobustan, Şəki, Şəmkir, Qax, Gədəbəy, Daşkəsən, Xızı, Xaçmaz və Oğuz rayonları ərazisində yaradılmış yeni su mənbələri bu gün adıçəkilən şəhərləri dayanıqlı və keyfiyyətli içməli su ilə təmin edir. Ümumilikdə “Azərsu” ASC son 7 ildə 20-dən artıq etibarlı su mənbəyi tikərək istismara verib və bu gün də bu istiqamətdə işlərimiz davam edir.

Qeyd edim ki, 2004-2017-ci illərdə əhalisinin sayı 630 min nəfər olan 520 kənddə içməli su təminatının yaxşılaşdırılması ilə bağlı işlər görülüb. Təkcə 2017-ci ildə içməli sudan əziyyət çəkən kənd və qəsəbələrin su təchizatının yaxşılaşdırılmasını nə-

zərdə tutan "Əhalinin içməli su ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" 17 mart 2017-ci il tarixli Prezident sərəncamına uyğun olaraq 28 rayonun 170 kəndində içməli su layihələri icra olunub. Mövcud su mənbələrinin, magistral xətlərin, şəhər şəbəkələrinin, həmçinin yeni qazılmış subartezian quyularının imkanlarından istifadə edilməklə həmin kəndlərdə 535 km su xətti çəkilib, əhalinin ümumi istifadəsi üçün 1432 bulaq quraşdırılıb.

***- Bakı şəhəri və Abşeron yarımadasının içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması, əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin artırılması istiqamətində hansı tədbirlər həyata keçirilib?***

- Bakı şəhəri və Abşeron yarımadasının şəhər, qəsəbə və kəndlərində su təchizatı, kanalizasiya sistemləri və yağış sularının idarə olunmasını nəzərdə tutan Master Plana uyğun olaraq 60-dan çox kənd və qəsəbədə işlərə başlanılmışdır. Ötən il cənab Prezident İlham Əliyev 18 qəsəbədə və "Ağ şəhər"də su və kanalizasiya şəbəkələrinin tikintisi ilə bağlı sərəncamlar imzaladı və müvafiq işlər görüldü.

Səudiyyə İnkişaf Fondu ilə birgə maliyyələşdirilən layihə çərçivəsində Badamdar qəsəbəsində yeni infrastrukturun yaradılması işlərinin birinci mərhələsi yekunlaşıb.

2017-ci ildə Səudiyyə İnkişaf Fondu ilə birgə maliyyələşdirilən digər layihə çərçivəsində Xırdalan şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulmasına başlanılıb. Hazırda Xırdalan şəhərində su və kanalizasiya şəbəkələrinin yenidən qurulması işləri intensiv qaydada davam etdirilir.

Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyinin qrantı hesabına icra edilmiş layihə çərçivəsində Kürdəxanı qəsəbəsində yeni su təchizatı sistemləri yaradılmış və 14 mindən artıq sakin fasiləsiz rejimdə içməli su ilə təmin olunub. Eyni zamanda Təmiz Şəhər layihəsi çərçivəsində Balaxanı qəsəbəsində yeni su təchizatı sistemləri yaradılaraq əhalinin istifadəsinə verildi.

Çoxmənzilli yaşayış binalarının daxili kommunikasiya sistemləri "Azərsu" ASC-nin balansına verildikdən sonra bu sahədə də yeni layihələrin icrasına başlanılıb. Ötən müddətdə 2000-dən artıq binanın paylayıcı su şəbəkəsi yenidən qurulub, 1700-dək binanın zirzəmisində kanalizasiya xətləri əsaslı şəkildə yenidən qurulub.

Bakı şəhərinin şərq hissəsinin içməli su təchizatında müstəsna əhəmiyyət daşıyan anbar komplekslərində aparılan yenidənqurma işləri nəticəsində Bakının Nizami, Xətai Suraxanı və Sabunçu rayonlarının böyük hissəsi fasiləsiz rejimdə içməli su ilə təmin edilib. Eyni zamanda anbarların yenidən qurulması, yeni magistral və paylayıcı şəbəkələrin tikintisi, yeni birləşmələrin verilməsi paytaxt sakinlərinin dayanıqlı və keyfiyyətli su təminatına imkan yaradıb.

Bakı şəhəri və Abşeron yarımadasında yol infrastrukturlarının yenidən qurulması işləri çərçivəsində bir sıra küçə və prospektlərdə uzun müddət istismar edilib və qəzalı vəziyyətdə olan su və kanalizasiya xətləri də yenilənib.

Ötən dövrlərin əsas layihələrindən danışarkən Mərkəzi Laboratoriyanı xüsusi qeyd etmək istəyirəm. 2013-cü ildə istifadəyə verilmiş yeni Mərkəzi Laboratoriya cəmi bir il sonra beynəlxalq akkreditasiyadan keçib. Bu da laboratoriyada aparılan analizlərin nəticələrinin beynəlxalq qurumlar tərəfindən tanınmasına imkan verir. Yeni laboratoriyanın yaradılması layihəsinə uyğun olaraq alınmış səyyar laboratoriyalar istənilən ərazidə və şəraitdə analizlərin aparılmasına, su mənbələrinin ilkin tədqiqinə imkan verir.

Abşeron yarımadasında kanalizasiya infrastrukturunun inkişafı istiqamətində də mühüm tədbirlər həyata keçirilir. Ötən müddətdə yeni kollektor və xətlərin, tullantı sutəmizləyici qurğuların tikintisi, mövcud xətlərin rekonstruksiyası, göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi istiqamətində əhəmiyyətli addımlar atılıb. 14 km uzunluğunda Bayıl-Bibiheybət-Lökbatan kollektorunun tikintisi yekunlaşıb və bununla da Bayraq meydanından başlayaraq Lökbatan dairəsinə qədər ərazidə Xəzər dənizinə axıdılan tullantı sularının qarşısı tam alınıb.

Yarımadanın digər istiqamətində Sumqayıt şəhəri, Corat və Novxanı qəsəbələri, həmçinin bağ massivləri və istirahət mərkəzlərindən Xəzər dənizə axıdılan tullantı sularının qarşısını almaq məqsədilə 15,2 km uzunluğunda Novxanı-Sumqayıt kanalizasiya kollektoru inşa edilib, Xəzər dənizinə birbaşa çıxışı olan kanalizasiya xətləri bu kollektora birləşdirildi.

Paytaxtın Həsən Əliyev küçəsində 6,5 km uzunluğunda yeni kanalizasiya kollektorunun tikintisi isə böyük bir ərazidə formalaşan tullantı sularının ötürülməsinə imkan yaradıb.

Bakı şəhərində formalaşan tullantı sularının təmizlənərək kənarlaşdırılmasına xidmət edən əhəmiyyətli layihələrdən biri Hövsan Aerasiya Stansiyasının yenidən qurulmasıdır. Fransa hökumətinin krediti hesabına stansiyada yeni qurğular tikilib, fiziki və mənəvi cəhətdən köhnəlmiş avadanlıqlar yeniləri ilə əvəz olunub. Nəticədə stansiyasının məhsuldarlığı sutkada 480 min kubmetrdən 640 min kubmetrə çatdırılıb. Layihənin tərkib hissəsi olaraq Zığ kanalizasiya nasos stansiyası yenidən qurulub və yeni təzyiqli kanalizasiya xətləri inşa olunub.

Abşeron yarımadasını əhatə edən Master Plana uyğun olaraq Azərbaycan hökumətinin və Koreya Respublikası İxrac-İdxal Bankının birgə maliyyələşdirdiyi layihə çərçivəsində Pirşağı qəsəbəsində yeni tullantı sutəmizləyici qurğusunun tikintisinə start verilib. Məlumat üçün bildirmək istərdim ki, bu qurğuda Azərbaycanda ilk dəfə olaraq tullantı sularının zərərsizləşdirilməsi ultrabənövşəyi şüa texnologiyası ilə aparılacaq. Qurğuda təmizlənən suların bir hissəsinin gələcəkdə suvarma məqsədilə istifadə edilməsi planlaşdırılır.

Bakı şəhərində icra etdiyimiz əhəmiyyətli layihələr sırasında yeni yağış-kanalizasiya kollektorlarının tikintisi xüsusi qeyd olunmalıdır. Ötən il yağış sularının yığılma təhlükəsi olan avtomobil yolları və ərazilərdə səth sularının kənarlaşdırılması məqsədilə 13 layihə icra edilib. Bu layihələr çərçivəsində 20 km-dən çox kollektorlar tikilib, yeni nasos stansiyaları quraşdırılıb. Yeni infrastruktur istismara verildikdən sonra baş vermiş intensiv yağıntılar zamanı layihələrin əhatə etdiyi ərazilərdə subasma halları qeydə alınmayıb. Böyükşor, Məhəmmədi və Taşağıl göllərinin suyunun tənzimlənməsi nəticəsində göllərdə suyun səviyyəsi enib, yaşayış evləri, obyektlər və avtomobil yolları üçün yarana biləcək subasma təhlükəsi tamamilə aradan qalxıb.

***- Beynəlxalq əlaqələrini ildən-ilə genişləndirən "Azərsu" ASC hər il yeni-yeni uğurlara imza atır. Xüsusilə ötən il ilk dəfə keçirilən beynəlxalq su həftəsi böyük marağa səbəb oldu...***

- Azərbaycanda su sektorunda həyata keçirilən layihələr beynəlxalq təşkilatlar tərəfindən yüksək dəyərləndirilir. Vaxtaşırı olaraq həmin təşkilatların rəsmi şəxsləri Azərbaycan hökumətinin su sektoruna həssas yanaşmasını xüsusi qeyd edib və ölkəmizi bu sahədə digər dövlətlərə nümunə göstərirlər. "Azərsu" ASC-nin 2013-cü ildə Dünya Su Şurasının, 2017-ci ildə Beynəlxalq Su Ehtiyatları Assosiasiyasının üzvlüyünə qəbul edilməsində də məhz bu amil həlledici rol oynayıb. 14-18 mart 2017-ci il tarixlərində Bakı şəhərində ümummilli lider Heydər Əliyevin dəyərli fikri olan "Su nəinki həyat mənbəyidir, hətta həyatın özüdür" devizi altında keçirilən 1-ci Bakı Beynəlxalq Su Həftəsi yerli və beynəlxalq mütəxəssislər tərəfindən maraqla qarşılanıb. Həftə çərçivəsində bir sıra silsilə tədbirlər keçirilib. Dünyanın unikal su təchizatı sistemlərindən sayılan Şollar-Bakı su təchizatı qurğularının 100 illik yubileyi təntənəli şəkildə qeyd olundu. Həftə çərçivəsində keçirilən Dünya Su Şurasının İdarə Heyətinin 61-ci Toplantısı və konfransda dünyanın 37 ölkəsindən 200-dən çox qonaq iştirak edib.

Digər uğurlardan danışarkən, Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksi 2016-cı ildə Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Abu Dabi şəhərində keçirilmiş Qlobal Su Sammitində 2015-ci ilin 4 önəmli su layihəsindən biri seçilməsini xüsusi qeyd etmək istərdim. Bir çox ölkələr üçün nümunə sayıla biləcək belə bir emal kompleksinin Azərbaycanda yaradılması fərəhləndirici və qürurverici hadisədir.

2015-ci ildə "Azərsu" ASC Afinada keçirilmiş "Global water 2015" sammitində "Qlobal Su təsərrüfatı liderləri" Qrupu tərəfindən "Su Liderləri" nominasiyasında mükafata, 2017-ci ildə isə Beynəlxalq Keyfiyyət Sammitində Liderlik, Keyfiyyət, İnnovasiya və Mükəmməllik sahəsində Beynəlxalq Biznes Təşəbbüsləri Təşkilatının Qızıl Mükafatına layiq görülüb.

***- Bildiyimiz kimi, "Azərsu" ASC yeni texnologiyaların tətbiqinə böyük önəm verir. Bu sahədə əldə olunan nailiyyətlər və işçilərin peşəkarlığının yüksəldilməsi istiqamətində görülən işlər barədə fikirlərinizi bilmək maraqlı olardı....***

- Yeni texnologiyaların tətbiqinə, demək olar ki, bütün fəaliyyət sahələrimizdə rast gəlinir. Bir qədər əvvəl qeyd etdiyim tikinti layihələri məhz son texnologiyalara əsaslanmaqla icra olunur. Bununla yanaşı, digər sahələrdə tətbiq olunan yeniliklər barədə də məlumat vermək istərdim.

"Azərsu" ASC-də informasiya və kommunikasiya texnologiyalarının beynəlxalq standartlara uyğun inkişaf etdirilməsi, proseslərin avtomatlaşdırılması, yeni elektron xidmətlərin yaradılması, İKT infrastrukturunun dayanıqlığının və fasiləsiz fəaliyyətinin təmin edilməsi istiqamətində zəruri tədbirlər həyata keçirilib.

AzərsuCİS, yeni coğrafi informasiya sistemləri artıq bir neçə ildir uğurla tətbiq olunur. Qurğu və obyektlərin, magistral və paylayıcı şəbəkələrimizin hamısı bu rəqəmsal xəritəyə işlənir və istənilən an məlumatları kompüterdən əldə edib təhlillər aparmaq mümkündür."Azərsu" ASC-yə aid bütün yeraltı və yerüstü infrastruktur məlumatlarının toplandığı bu sistemə indiyə qədər 15000 km su, 7000 km kanalizasiya xətti, 11000 qurğu və qurğu kompleksi, unikal kod verilmiş 438 min bina və tikili məlumatları daxil edilib. İstehlakçılara göstərilən müştəri xidmətlərinin asanlaşdırılması, bu sahədə şəffaflığın və operativliyin təmin edilməsi məqsədilə 11 elektron xidmət istifadəyə verilib. Ötən il elektron xidmətlərdən 347 min dəfə istifadə olunub ki, bu da dövlət qurumları arasında 5-ci göstəricidir.

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "Asan xidmət" və "Asan Kommunal" mərkəzlərində "Azərsu" ASC-nin xidmət bölmələrinin əhatə dairəsi genişlənib. İndiyədək xidmət bölmələrinə vətəndaşlar tərəfindən daxil olmuş110 minədək müraciət operativ qaydada həllini tapıb.

Yeni infrastruktur yaradılarkən müasir texnologiyalar və sistemlərdən istifadə bu sahədə kadr potensialının gücləndirilməsini zəruri edir. İşçilərin peşə hazırlığını yüksəltmək üçün cəmiyyətin minlərlə əməkdaşı təlimlərə cəlb olunub və onların 250-dən çoxu xarici ölkələrdə təşkil olunmuş təlim və treninqlərdə iştirak edib. Hövsan Aerasiya Stansiyasının ərazisində yeni Təlim İnnovasiyalar Mərkəzi yaradılıb. Mərkəz zəruri avadanlıq, əyani vəsaitlərlə təchiz edilib, burada beynəlxalq və regional təlimlərin keçirilməsi üçün hər cür şərait yaradılıb. Mütəxəssislərin təcrübi biliklərinin artırılması məqsədilə hazırda burada təcrübə poliqonunun tikintisi davam etdirilir.

***- Sonda istərdik ki, "Azərsu" ASC-nin 2018-ci il üçün planları və prioritetləri barədə danışaq. Bu il hansı layihələr icra olunacaq?***

- Ölkə başçısı regionların sosial-iqtisadi inkişafına həsr olunmuş konfransda bir sıra həlli vacib məsələlərin icrası ilə bağlı tapşırıqlar verib. Bu il Ağdaş, Qəbələ, Daşkəsən, Xaçmaz, Xızı, Ağcabədidə su və kanalizasiya şəbəkələrinin, Astara şəhərində su şəbəkəsinin inşasının başa çatdırılması gözlənilir. Daşkəsən, Göyçay, Qəbələ şəhərlərində, həmçinin Pirşağı qəsəbəsində tullantı sutəmizləyici qurğunun tikintisini başa çatdırmağı da hədəfləmişik. Bu il daha bir şəhərdə - Qazaxda su və kanalizasiya layihələrinin icrasına start veriləcək, 10-dan artıq şəhərdə isə tullantı sutəmizləyici qurğuların tikintisinə başlanılacaq.

2018-ci ildə Bakı şəhəri və Abşeron yarımadasının kənd və qəsəbələrində layihələrin icrası davam etdiriləcək. Paytaxt ərazisində, o cümlədən Babək prospekti, Təbriz və Mir Cəlal küçələrində avtomobil yollarının yenidən qurulması işləri çərçivəsində uzun müddət istismarda olan və qəzalı vəziyyətə düşən su və kanalizasiya xətlərinin yenilənməsi nəzərdə tutulur.

Ötən il olduğu kimi, içməli sudan əziyyət çəkən kəndlərdə yeni layihələr icra olunacaq. Artıq bu istiqamətdə işlərə başlanılıb, kəndlərin müəyyənləşdirilməsi və layihələndirmə işləri davam etdirilir. Abonentlərə göstərilən müştəri xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, əhalinin suölçən cihazlarla təmin olunması üzrə işlər davam etdiriləcək. Cari ildə istifadəyə verilməsi nəzərdə tutulan 5 elektron xidmət abonentlərin işini daha da asanlaşdıracaq. Ümidvarıq ki, əhalinin içməli su ilə təmin edilməsi və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılması naminə həyata keçirdiyimiz tədbirlər əhalinin sosial rifahının daha da yaxşılaşdırılmasına səbəb olacaqdır.

# Azərbaycan Xalq Cümhuriyyəti - 100

***Məğlubiyyət xəbərləri qanadlı quş kimi özünü "Prezident Kryuger" gəmisinə yetirirdi. Son günlər qərargahdan kənara çıxmaq istəməyən general Denstervil acıqlı, kinli və pərişan idi. Sanki üzünə, gözünə zillənmiş baxışların qınağı altında əzilir, hərbi şərəf və qüruru tapdanır, general içindəki yanğını kimsəyə bildirmədən qəhr olurdu.***

Polkovnik Keyvort generalın arxasınca gəzir, təşkinlik üçün söz axtarır, çaş-baş halda susurdu. Axı hansı söz döyüş meydanında məğlub olan, əsgər şərəfi tapdanan generalı sakitləşdirə, yenidən qələbəyə ruhlandıra bilərdi?

Denstervil başındakı papağı çıxardı, kreslonun üstünə atdı və dişlərini qıcayaraq bağırdı:

- Bütün günahlar ermənilərdədi. Onlar qorxaq və acizdirlər. Onlar döyüşmədilər, fərarilik etdilər.

Keyvort da onun dediyini təsdiqlədi:

- "Sentrokaspi"nin hərbi şurası da çox bacarıqsızdır. Onlar Bakının müdafiəsini təşkil edə bilmədilər. Zəif bir işığın sönməsini istəmirdilər. Buna görə də, Bakı hökuməti ingilislər qarşısında şərt qoydu:



Yazıçı Güllü Məmmədova

- Bakıda yaşayan əhalinin evakuasiyasından sonra və ancaq bizim əsgərlərimizlə birlikdə şəhəri tərk etmənizə icazə verə bilərik.

General bu şərtdən narazı qalsa da, gözlədi...

10 sentyabr 1918-ci il

Qafqaz İslam Ordusunun Qobuda yerləşmiş qərargahı

Gündüzdən başlayan müşavirə hələ də davam edir. Bakıya son döyüşün, son hücumun planı hazırlanır.

Müzakirə başlamamışdan əvvəl Nuri paşa dedi:

- Aylarla apardığımız mübarizənin, qanlı savaşların son mərhələsinə çatmışıq. Göyçayda savaşa başlayanda, orduda dəyişiklik etdik. Şimal və Cənub qrupları yaradıldı. 15-ci piyada firqəsinin yardıma gəlməsi ilə yeni dəyişikliyə ehtiyac vardır. Belə hesab edirəm ki, Şərq cəbhəsi komandanlığı ilə ona tabe olan Şimal qrupu ləğv edilsin. Döyüşdə iki firqə iştirak edəcəkdir: 5-ci Qafqaz piyada firqəsi. Bu firqəyə Mürsəl paşa komandanlıq edəcəkdir. Müharibənin əsas ağırlığı da bu firqənin üzərində olacaq.

İkinci firqə 15-ci Qafqaz piyada firqəsi. Bu firqənin komandanı yarbay Süleyman İzzət bəydir. Cənub qrupu hərbi birliklərinin də yaradılmasını düşünürəm. Bu qrupa albay Cəmil Cahid bəy komandanlıq edəcəkdir. Azərbaycanlılardan yaradılan hərbi birlik isə yarbay Həlim Pərtəv bəyin komandanlığı altında olacaqdır.

Xəlil paşa, Nuri paşa, general Şıxlinski, Almaniyanın Tiflisdəki nümayəndəsi Parakuin, alman zabitləri, komandirlər planın hazırlanmasına öz təkliflərini verirlər.

Miralay Parakuin deyir:

- Böyük müharibənin təcrübəsindən bilirik ki, düşmənin mövqeyi səhra topu ilə əzilməsə oraya süngü döyüşü ilə həmlə etmək olmaz. Buna görə də, əvvəlcə düşmən səngərlərini darmadağın edək, sonra hücuma keçək.

Nuri paşa düşündü, xəritəyə göz yetirdi və miralaya sərt halda dedi:

- Bu təklifi bəyənmədim. Kifayət qədər top mərmisi yoxdur. Ona görə də, bu döyüş planı məğlubiyyətə aparar.

- Sizin fikriniz necədi, yarbay Bəsri bəy?

Yarbay Bəsri bəy xəritəyə nəzər saldı və çəkingən halda astadan dedi:

- Mənim fikrimlə minbaşı Nazim bəy, minbaşı Səffət bəy, Tevfiq bəy də razıdır. Yəni biz eyni fikirdəyik və bunu uğurlu hesab edirik.

- Buyurun, - Nuri Paşa səbirsiz dedi.

- Biz ilk əvvəl hücuma qumbara və süngü döyüşü ilə başlamağı təklif edirik. Süngü döyüşü sınanmış bir plandır. Gecəyarısı hücum zamanı düşmən çaşır, güllə atmağa belə fürsət tapa bilmir. Hissə komandirlərinin bəzisinin də fikri belədir ki, düşməni hər tərəfdən şəhərə doğru sıxışdıraq və burda məhv edək.

- Yox. Yox, bu fikirlə razı deyiləm. Bilirsənmi, onda nə baş verər? Şəhər xarabalığa çevrilər, insanlara ciddi ziyan dəyər. Ən başlıcası isə, şəhəri yanğınlar bürüyər. Yalnış atılmış top neft çənlərinə, buruqlara düşsə, görün nələr olar? Halbuki mən həm şəhərə, həm də insanlara ziyan dəyməsini istəmirəm.

Ortalığa ağır bir sükut çökdü. Nuri paşa dedi:

- Amma süngü döyüşü ağlabatandı.

Xəlil paşa cavab vermədi. Nuri paşa üzünü ona tutdu:

- Bu fikri bəyəndinizmi, komandanım?

- Fikrimi sonra bildirərəm. Səbr edin, tələsməyin.

...Xəlil paşa hərbidə olduğu illər ərzində döyüşqabağı zehnini, də yüzlərlə şəhid vermişlər. Bu torpağın hər qarışına türklərin və azərbaycanlıların qanı axıb. Onlar vətən yolunda canlarından keçmişlər. İndi bu həlledici məqamda erməni zülmündən yetərincə əzab, işgəncə çəkmiş bu xalqın boğazına bir də alman kəndirinimi keçirəcəyik? Sizin iştahınız qılıncdan da itidir. Məni bağışla, cənab Parakuin. Mən əzab çəkmiş bu millətə bir də bu pisliyi edə bilmərəm. Biz 15-ci firqəni fon Kresslə şərtlər əsasında Tiflis dəmiryolu ilə Azərbaycana gətirdik. Amma sizin alman alayının bu torpağa addım atmasını əngəlləyəcəyəm..."

Xəlil paşa iki gün döyüş mövqelərini Nuri paşa və general Şıxlinski ilə gəzdi. Əsgərlərlə görüşdü, söhbət etdi, onların döyüş əhval-ruhiyyəsini yüksəltdi. Hər əsgərə bir komandan kimi yox, bir ata qayğısı ilə yanaşdı. Anadoludan gəlmiş bu əsgərlər uzun və məşəqqətli döyüş yolu keçmişdilər. Özlərindən qat- qat üstün olan bir düşməni məğlub etmişdilər. Bu əsgərlər hər cür qayğıya, etimada və sevgiyə layiq idi. Onlar Xəlil paşa üçün vətənin əmanətiydi. Gözləri şövqlə parıldayan, qəlbləri atəş kimi alovlanan, türk əsgərinin adı, şərəfi, bayrağı

# "Qan içində işıq"

## *(Tarixi sənədli romandan bir parça)*

Denstervil qızdırmalı adamlar kimi öz-özünə söyləndi:

- Bakını tərk etmək lazımdır. Biz getməliyik. Biz türklərlə bacara bilmədik. Keyvort, başa düşürsən? Biz Nuri paşaya, Xəlil paşaya uduzduq.

General birdən susdu, sonra da Keyvortdan soruşdu:

- Görəsən, Nuri paşanın neçə yaşı var?

- İyirmi doqquz,- Keyvort tələsik cavab verdi.

- Hər halda, zarafat eləmirsən, polkovnik.

- Xeyr, xeyr.

Generalın gözləri iriləndi, bu gözlərdə paxıllıq, həsəd hissi bir-birinə qarışdı. General bir müddət nə deyəcəyini bilmədi. Lakin içində elə bir zəlzələ vardı ki, bu səssiz zəlzələ onun içində hər nə vardısa dağıdır, yandırır, külünü çıxarırdı.

Keyvort sanki bu anlarda generalın göynəməkdə olan yarasına düşmən kimi toxundu :

- Nuri paşa və Ənvər paşa Xəlil paşanın qardaşı oğullarıdır. Ənvər paşa isə Nuri paşanın qardaşıdır.

- Bu məğlubiyyətin niyə baş verdiyini başa düşdüm, Keyvort. Bu üçlük bizə qarşıdır. Bizi məhv etməyə çalışırlar. Biz tezliklə burdan getməliyik. Bir yığıncaq keçirməli və qərarımızı bildirməliyik. Mən ingilis əsgərini ermənilərin istəklərinə qurban verə bilmərəm.

Səhərisi gün keçirilən yığıncaqda general Denstervil üzünü "Sentrokaspi" rəhbərlərinə tutaraq dedi:

- Yer üzündə heç bir qüvvə Bakını türklərdən qoruya bilməz. Şəhərin müdafiəsinin davam etdirilməsi, təslim gününü uzatmaqdan başqa bir şeyə yaramır. İndiyə qədər yalnız ingilis əsgərləri döyüşdü. Mənim əsgərlərimin qəhrəmancasına döyüşməsinə baxmayaraq, türklər hər hücumda qalib gəldilər. Yerli hərbi birliklər bizimkilərə kömək etmədi.

Mən adamlarımın boş yerə həlak olmasına razı ola bilmərəm. Biz türklərə qarşı vuruşmaq üçün sizin əsgərlərinizə köməyə gəlmişdik. Ancaq sizin əsgərlərinizin yerinə biz vuruşuruq.

Sizlərə - Bakının təslim edilməsi barədə danışıqlara başlamaq üçün türklərə bir nümayəndə göndərməyi tövsiyə edirəm. Qadın və uşaqların şəhərdən çıxarılmasına imkan verəcək uyğun şərtlərin əldə edilməsi sizin üçün çətin olmayacaq. Sizlər bununla da türklərin şəhəri silah gücünə ələ keçirməsindənsə, hadisələrin gedişinə daha yaxşı istiqamət verə bilərsiniz.

Denstervilin söylədikləri "Sentrokaspi" rəhbərlərini qəzəbləndirdi. Eyni zamanda qorxuya saldı. İngilis hərbi qüvvələri ilə eser, menşevik və daşnak qüvvələri özlərini daha təhlükəsiz hiss edirdilər.

hissini, düşüncəsini planın hazırlanmasına səfərbər edərdi. Qərargahında tənha qalar, saatlarla xəritənin önündə dayanar, düşünərdi. Düşmənin istifadə edəcəyi ən kiçik səhvi belə diqqətdən qaçırmamağa çalışardı. Bəlkə elə bu səbəbdən də, Kut-əl-Ammaredə ingilisləri ağır məğlubiyyətə uğratmışdı...

Ənvər paşa kimi Xəlil paşa da Bakının azad olunmasını bütün qəlbi, canı ilə istəyirdi. Bu torpağın taleyi türk torpağının taleyi kimiydi. Doğu vilayətlərində də müharibə gedirdi. Onun kimi Kazım Qarabəkir paşa da türk qanına susamış erməniləri məğlub edərək, Gümrüyə qədər qovmuşdu. Naxçıvanı daşnaklardan təmizləmişdi.

Burda düşmən daha çox, daha qüvvətli, güclü idi. Bakı neftinə göz dikmiş bu düşmən yağlı tikəni qamarlamaq istəyən canavar sürüsündən başqa bir şey deyildi. İngilis, rus, erməni, alman...

Dərin düşüncələr içində olan Xəlil paşanın sifətindəki sərtlik dəyişdi. Dolu, yaraşıqlı çöhrəsi kinayəli bir gülüşlə işıqlandı. Onun almanlara yazığı gəldi: "Bu sadəlövh almanlar kiminlə iş gördüklərini hələ anlamamışlar. Ordunun qərargah rəisi Parakuin... Sən Xəlil paşanın mülayim davranışına aldanma. Bu bir. İkinci alman alayının Bakının işğalında iştirak edəcəyi vədinə də inanma. Türklər Bakıya qədər gedən döyüşlər-

üçün canından keçməyə hazır olan bu dəliqanlıların hər biri onun üçün əziz idi. Xəlil paşa sanki onların səssiz baxışlarından oxuyurdu: "Komandanım, elə bir döyüş planı hazırlayın ki, düşməni məğlub edə bilək. Həm də bizi qoruyun. Çünki biz vətənə lazımıq".

Xəlil paşanın səmimiyyətindən, qayğısından ruhlanmış əsgərlər heyranlıqla komandana baxır, gözlərində bir ehtiram, bir sevgi alovu şölələnirdi:

- Demək adını eşidib, üzünü görmədiyimiz komandan beləymiş...

- Əynindəki paşa uniforması olmasaydı, mən onu sıradan bir əsgərə bənzədərdim.

- Bizimlə bir masa arxasında oturdu, çörək kəsdi, əfəndim...

- Belə komandanın yolunda ölümə də gedərəm...

...Xəlil paşa döyüş mövqelərinə yavəri Səlahəddin bəylə təkrar baş çəkdi. Müşahidə durbini ilə qarşıdakı yüksəklikdə mövqe tutmuş düşmən cəbhəyə diqqətlə baxdı. Türk ordusu ilə düşmən ordusu yüksəkliklərdə üz-üzəydi. Qarşı tərəfdə yaxşı yerləşdirilmiş topların lülələri də aydınca seçilirdi və bunlar çox idi. Aşağıda yüksəkliklərin arası ilə dəmiryolu xətti keçirdi. Xəlil paşa düşündü. Sonra yavəri ilə qərargaha tələsdi.

***(Ardı var)***

# Cənab İlham Əliyevin qələbəsi xalqın qələbəsidir

*YAP Biləsuvar rayon təşkilatının idarə heyətinin iclası keçirilib*





Yeni Azərbaycan Partiyası Biləsuvar rayon təşkilatında Azərbaycan Respublikası Prezidenti seçkilərinin yekunu və qarşıda duran vəzifələrlə bağlı idarə heyətinin iclası keçirilib.

İclası açıq elan edən YAP Biləsuvar rayon təşkilatının sədri Kamil Mirzəyev bildirib ki, 11 aprel 2018-ci il tarixində keçirilən Azərbaycan Respublikası Prezidenti seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi ölkə Prezidenti Cənab İlham Əliyev mütləq səs çoxluğu ilə qələbə qazanıb və bu qələbə münasibəti ilə Biləsuvar rayon əhalisi, eləcə də, YAP Biləsuvar rayon təşkilatının çoxsaylı üzvləri ölkə başçısını təbrik edirlər.

K.Mirzəyev qeyd edib ki, Cənab İlham Əliyevin prezident seçkilərində qələbə qazanması, həm də Azərbaycan xalqının qələbəsidir. "Bu qələbə iqtidar və xalq birliyinin sarsılmaz vəhdətindən xəbər verir"-deyə qeyd edən rayon təşkilatının sədrinə görə, Azərbaycan xalqı inanır ki, ölkə Prezidenti İlham Əliyev Cənabları Azərbaycan dövlətinin daha uğurlu inkişafı naminə, Azərbaycan xalqının daha xoş gələcəyi üçün əsl liderdir: "Biləsuvar əhalisi də bu seçkilərdə çox böyük fəallıqla iştirak edərək, ölkə Prezidenti Cənab İlham Əliyevə səs verib".

Digər çıxış edənlər - idarə heyətinin üzvləri Xalidə Ağayeva, Akif Kazımov, şura üzvlərindən Rafiq Cəfərov, Əvəz Miriyev öz nitqlərində bildiriblər ki, Azərbaycan xalqını daha uğurlu gələcəyə aparan lider kimi Cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu dinamik inkişaf bundan sonra da xalqımız tərəfindən mütəşəkkilliklə dəstəklənəcək.

Tədbirin sonunda YAP Biləsuvar rayon təşkilatının ictimai-siyasi həyatında daha çox fəallıq göstərən üzvlərdən bir qismi Fəxri Fərman və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

**R.RƏSULOV**

# Bakı aeroportu postsovet məkanının bütün hava limanları arasında ən yaxşısıdır



Vertolyotdan dünyanın ən gözəl hava limanlarından biri - Heydər Əliyev Beynəlxalq Aeroportunun unikal şəkilləri çəkilib. AZƏRTAC xəbər verdiyi kimi, Azərbaycanın əsas hava limanı Rusiya və MDB ölkələrinin bütün aeroportları arasında göstərilən xidmət səviyyəsinə görə yenidən ən yaxşılar siyahısına başçılıq edib. Heydər Əliyev Beynəlxalq Aeroportu ardıcıl olaraq ikinci il hava limanı sənayesi üçün ən nüfuzlu qiymətləndirmə olan "Skytrax World Airport Awards" mükafatına layiq görülüb. "Skytrax" mükafatının təntənəli təqdimat mərasimi Stokholmda keçirilib.

Bundan başqa, Heydər Əliyev Beynəlxalq Aeroportu hər il beş milyona qədər sərnişinə xidmət göstərən dünya aeroportları siyahısında üçüncü yeri tutub. Siyahıya London-Siti aeroportu başçılıq edir. Daha bir nüfuzlu nominasiyanı Heydər Əliyev Beynəlxalq Aeroportunun yeni aerovağzal kompleksi (Terminal 1) alıb. Belə ki, o, dünyanın ən yaxşı terminallarının onluğuna daxil olub. Bu reytinqin lideri Londonun Hitrou hava limanı (Terminal 2) olub. "Skytrax" tərəfindən keçirilən və 550 hava limanı arasında sərnişinlərə xidmət və şəraiti qiymətləndirən hava limanlarının qlobal inspeksiyası dünya hava limanı sənayesi üçün keyfiyyət etalonu sayılır. İnspeksiya və mükafat hava limanının nəzarəti və müdaxiləsindən asılı deyil və buna görə də, hava limanının mükəmməllik və keyfiyyəti üzrə obyektiv göstəricidir. İnspeksiya dövründə "Skytrax", həmçinin 100 ölkədən 13,73 milyon sərnişin arasında sorğu keçirib.



# Ənənəvi İslam dəyərlərinin təbliği yad dini-ideoloji təsirlərin qarşısının alınmasında mühüm rol oynayır



Aprelin 19-20-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Ucar Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Dini maarifləndirmə işinin təşkili: gerçəkliklər və perspektivlər" mövzusunda ikigünlük seminar-treninq keçirilib.

DQİDK-dən AZƏRTAC-a bildiriblər ki, seminar-treninqin birinci günündə Ucar və Göyçay rayonlarında fəaliyyət göstərən məscidlərin imamları, imam müavinləri, dini icma sədrləri və dindarlar iştirak ediblər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov bildirib ki, respublikamızda həyata keçirilən din siyasətinin əsas mahiyyəti dini etiqad, vicdan azadlığının təmin edilməsidir. Bununla yanaşı, konfessiyalararası münasibətləri, dinlərarası dialoqu, tolerantlıq mühitini qoruyub saxlamaq əsas prioritet istiqamətlərdən biridir. Dövlət Komitəsi sədrinin müavininin sözlərinə görə, ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində bütün sahələrdə olduğu kimi, dövlət-din münasibətlərində də tam hüquqi qanunvericilik bazası formalaşdırılıb. Azərbaycan dünyəvi dövlət olsa da, dövlətimiz bütün dinlərə eyni münasibət sərgiləyir, tolerant və multikultural dəyərləri təşviq və təbliğ edir.

Dövlətin dinə və dindarlara qayğısından da bəhs edən G.İsmayılov deyib ki, ölkəmizdə mövcud dini konfessiyaların dəstəklənməsini, mənəvi dəyərlərin qorunmasını və inkişafını, habelə bu sahəyə dövlət dəstəyinin gücləndirilməsini təmin etmək məqsədilə Prezident İlham Əliyevin Sərəncamı ilə Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması bu qayğının bariz nümunəsidir.

Daha sonra çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin Göyçay rayonu üzrə səlahiyyətli nümayəndələri Rəsul Kazımov və Cavid Səfərov Azərbaycanda mövcud olan tolerantlıq mühitini yüksək qiymətləndiriblər.

İkinci gün seminar-treninqdə rayonun ümumtəhsil məktəblərinin direktorları, təlim-tərbiyə işləri üzrə direktor müavinləri, məktəb psixoloqları, "Həyat bilgisi" fənnini tədris edən müəllimlər və aktiv gənclər iştirak ediblər. Ucar Rayon İcra Hakimiyyəti başçısı Aparatının ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Məhəmməd Bayramov mövzunun əhəmiyyətindən danışıb. O, eyni zamanda, rayonda keçirilən dini maarifləndirmə tədbirlərinin önəminə də toxunub.

Daha sonra çıxış edən DQİDK-nın sədr müavini Gündüz İsmayılov bildirib ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən respublikamızda dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, ölkəmizdə tarixən mövcud olan tolerantlıq ənənələrinin qorunması və təşviqi, eyni zamanda, dini radikalizm və dini ekstremizmlə ideoloji müstəvidə effektiv mübarizənin aparılması məqsədilə silsilə tədbirlər həyata keçirilir. G.İsmayılov vurğulayıb ki, müasir cəmiyyətdə dini dəyərlərin düzgün təbliğində, eləcə də dini radikalizmə qarşı mübarizədə maarifçilik əsas silahdır. Sədr müavini yad dini-ideoloji təsirlərin qarşısının alınması istiqamətində ənənəvi İslam dəyərlərinin təbliğinin mühüm rol oynadığını qeyd edib. Onun sözlərinə görə, ənənəvi İslam dini siyasiləşməyə, bölücülüyə haqq qazandırmır və dinin siyasiləşdirilməsi yolverilməzdir.

Sədr müavini deyib ki, ideoloji müstəvidə din sahəsində mövcud problemlərdən biri də dini kimliyimizin milli kimliyimizə qarşı qoyulmasıdır. Dini kimlik dedikdə İslam, milli kimlik dedikdə isə azərbaycançılığın nəzərdə tutulduğunu deyən natiq təəssüflə qeyd edib ki, bəzi dini qruplar məqsədli şəkildə dini kimliyimizlə milli kimliyimizi qarşı-qarşıya qoyurlar. G.İsmayılov sonda dini radikalizmin təsirlərindən qorunmaq üçün hər kəsin, xüsusilə gənclərin ümumi dini biliklərə malik olmasının vacibliyini diqqətə çatdırıb.

Dövlət Komitəsinin Ucar bölgəsi üzrə şöbəsinin müdiri Əzim Rəfiyev qeyd edib ki, Azərbaycanda ictimai-siyasi və dini durum sabitdir və respublikamız dünyaya multikulturalizm nümunəsi göstərir.

Tədbirdə çıxış edən digər natiqlər Azərbaycanda dövlət-din münasibətlərinin əsasının xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulduğunu, bu gün isə Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirildiyini vurğulayıblar.

İki gün davam edən seminar-treninq iştirakçıları maraqlandıran sualların cavablandırılması və müzakirələrlə yekunlaşıb.

# 23 Aprel Dünya Kitab və Müəlliflik Hüququ Günüdür

## *Erməni işğalı nəticəsində Azərbaycanın 700-dən artıq tarixi və mədəniyyət abidəsi, 11 dünya əhəmiyyətli abidə dağıdılıb, qarət edilib və yandırılıb*

***23 Aprel Dünya Kitab və Müəlliflik Hüququ Günüdür. Bu gün, planetimizin əksər ölkələrində olduğu kimi, Azərbaycanda da geniş şəkildə qeyd olunur. Bu barədə qərar 1995-ci ildə Parisdə UNESCO-nun Baş Konfransında qəbul edilmişdir. 1996-cı ildən etibarən isə kitaba və müəlliflərə hörmət əlaməti olaraq, bu gün bütün dünyada qeyd olunur. Azərbaycanda isə həmin gün 1997-ci ildən etibarən ənənəvi şəkildə qeyd edilir və müxtəlif tədbirlərlə müşayiət olunur.***



Belə tədbirlərin keçirilməsində məqsəd kitabların insan həyatındakı böyük əhəmiyyətini vurğulamaq, müəlliflik hüququnun mədəni irsin yaranmasında, qorunub-saxlanmasındakı rolunu göstərmək, davamlı iqtisadi inkişafda və informasiya cəmiyyətinin formalaşmasındakı əhəmiyyətini diqqətə çatdırmaqdır. Eyni zamanda, əqli mülkiyyətin yaradıcılarına olan hörmət və ehtiramı nümayiş etdirmək, diqqəti mədəni irsin və adət-ənənələrimizin qorunub-saxlanmasına yönəltməkdir.

Azərbaycanın müəllif-hüquq sisteminin yaradıcısı Ümummilli Lider Heydər Əliyevdir. Məhz Onun uzaqgörənliyi sayəsində 1993-cü ildə mərkəzi icra hakimiyyəti statusunda Müəllif Hüquqları Agentliyi yaradıldı və 1996-cı ildə müstəqil Azərbaycanın ilk əqli mülkiyyət üzrə "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanun qəbul olundu. "Azərbaycanın əqli mülkiyyət sisteminin beynəlxalq səviyyəyə yüksəlməsinə yol açıldı. Ulu Öndər Heydər Əliyevin tövsiyələri əsasında Avropa məkanında, ilk dəfə olaraq, MHA tərəfindən "Azərbaycan folklor nümunələrinin qorunması haqqında" Qanun layihəsi hazırlandı. 2002-ci ildə isə "İnteqral sxem topologiyalarının hüquqi qorunması haqqında" Qanun qüvvəyə mindi.

Müasir dövrdə 5 qanundan, o cümlədən, "ƏMH təminatı və piratçılığa qarşı mübarizə haqqında", "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" unikal qanunlardan, 100-ə qədər normativ-hüquqi sənədlərdən ibarət olan Azərbaycanın müəllif-hüquq bazası mövcuddur. Piratçılığa qarşı görülən tədbirlər nəticəsində, 2005-ci illə müqayisədə piratçılığın səviyyəsi müxtəlif sahələrdə 20-30 % aşağı düşüb.

Azərbaycan Prezidenti Cənab İlham Əliyevin tapşırıqlarına əsasən, adıçəkilən qanunlarda müasir dəyişikliklər edilib və onlara əlavələr olunub. Bununla yanaşı, müəllif-hüquq qanunvericiliyi zənginləşib, 2004-cü ildə "Məlumat toplularının hüquqi qorunması haqqında" Qanun, 2012-ci ildə isə "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Qanun qəbul olunub. Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan və Ulu Öndərin layiqli davamçısı Prezident Cənab İlham Əliyevin düşünülmüş siyasətinin nəticəsi olaraq, Azərbaycanın müəllif-hüquq sistemi beynəlxalq ekspertlərin rəyinə əsasən, MDB məkanında ən inkişaf etmiş sıralara daxil edilib və nümunəvi sistem kimi qəbul olunub. Prezident İlham Əliyev tərəfindən imzalanmış "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında bu sistemin özünəməxsus yeri vardır.

Azərbaycan xalqının mədəni irsinin yüz illər boyu ermənilər tərəfindən "Gəldim, gördüm,... mənimsədim" sxemi üzrə oğurlanması siyasəti ölkəmizə qarşı ərazi iddiaları ilə sıx bağlıdır. Ermənilər öz ərazi iddialarını əsaslandırmaq üçün Azərbaycan torpaqlarının həqiqi sakinlərinə məxsus olan maddi və qeyri-maddi mədəni irsin mənimsənilməsi və erməniləşdirilməsi ilə bağlı yollardan istifadə etməyə çalışırlar. Əqli və maddi-mədəni oğurluqlarla, tarixi-coğrafi uydurmalarla, özlərinə yalançı tarix formalaşdırırlar. Dağlıq Qarabağı və ətraf torpaqlarımızı bu günə qədər boşaltmayan, beynəlxalq hüquq normalarına riayət etməyən və beynəlxalq strukturların qərarlarına məhəl qoymayan, azğınlaşmış ermənilər öz siyasətlərini davam etdirilər. Erməni vandalizmi nəticəsində, Azərbaycan xalqının çoxəsrlik tarixini əks etdirən 700-dən artıq tarixi və mədəniyyət abidəsi, o cümlədən, 11 dünya əhəmiyyətli abidə dağıdılıb, qarət edilib və yandırılıb. Ermənilər tərəfindən Azərbaycanın mədəni irsinin mənimsənilməsinə yol verilməməsi üçün bütün imkanlardan istifadə edilir.

Ermənilər Azərbaycanın adət-ənənələrini, tarixi abidələrini, musiqini, musiqi alətlərini, mətbəxini və digər nümunələrini öz adlarına çıxmağa çalışırlar. Bu məqsədlə ermənilər hər bir yola, hətta cinayətə də əl atırlar. Azərbaycan xalqının mədəni irsinin qorunması, ermənilər tərəfindən özününküləşdirilməsinə yol verilməməsi üçün ciddi addımlar atılır. Belə ki, ölkəmiz Haaqa Konvensiyasının müvafiq komitəsinə üzv seçilib və işğal olunan ərazilərdə mədəni irsin vəziyyətini iclasın gündəliyinə daxil edərək, bu istiqamətdə müvafiq sənədin qəbul edilməsinə nail olub.

Son illər xalqımıza məxsus maddi-mədəni irs nümunələrinin qorunması və dünyada təbliği istiqamətində görülən işlər təqdirəlayiqdir.

***Zümrüd BAYRAMOVA***




## Gəncər Fondunun "Mənim tolerant vətənim" layihəsi başa çatdırıldı



Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə "Mənim tolerant vətənim" adlı layihənin bağlanış mərasimi həyata keçirilib. Tədbiri giriş sözü ilə açan layihə rəhbəri Elmir Əlizadə gənclərə layihənin əhəmiyyəti barədə ümumi məlumat verərək, onun məqsədini və layihə ərzində keçirilən təlimlərin mövzularını bir daha iştirakçıların diqqətinə çatdırıb. E.Əlizadə təlimçi iştirakçıları salamlayaraq, Azərbaycanda mövcud olan tolerantlıq barədə geniş məlumatlar verib, eləcə də, layihə iştirakçıları olan gənclərin mövzu ilə bağlı suallarını cavablandırıb. Tədbir ümumi müzakirə və diskusiyalar fonunda davam etdirilib. Sonda isə, layihə iştirakçılarına sertifikatlar təqdim edilib.

***Afət Tahirqızı***

# Ürəyi azərbaycançılıq məfkurəsi ilə döyünən ağsaqqal və ziyalı

## *Azərbaycan xalqının görkəmli oğlu, tanınmış ictimai-siyasi xadim, alim və professor Əjdər İsmayılovun 80 illik yubileyidir*

Bu il aprelin 23-də Azərbaycan tarix və ədəbiyyatşünaslığında uzun illərin zəhməti ilə ərsəyə gətirdiyi mötəbər əsərləri sayəsində erməni yalanlarını ifşa edən, Azərbaycan ədəbiyyatına öz dəyərli töhfələrini verən, cavidşünas, ictimai-siyasi xadim, "Turan Araşdırma Mərkəzi" içtimai birliyin sədri, tanınmış alim və professor Əjdər İsmayılovun 80 illik yubileyi qeyd ediləcək.

İlk növbədə, deyə bilərik ki, Əjdər İsmayılov daim Vətən sevgisi ilə ürəyi döyünən ziyalılarımızdandır və onun bu günə qədər göstərdiyi fəaliyyətinin hər bir damlasında, hər bir nəfəsində tükənməz azərbaycançılıq məfkurəsi dayanmaqdadır. Əbəs deyil ki, Əjdər müəllim uzun illər boyu apardığı araşdırmaçı tədqiqatları, elmi məqalələri və əsərləri ilə erməni yalanlarını dünya ictimaiyyətinə çatdıran elm adamlarımızdan biri olaraq qiymətləndirilməkdədir. Belə ki, Əjdər müəllim, ermənilərin tarixi Azərbaycan torpaqlarına köçürülməsini müxtəlif tarixi sənədlərlə isbatlayan və erməni tarixşünaslığının yalanlar üzərində qurulmasını beynəlxalq aləmə bəyan edən dəyərli alimimizdir. Professor Əjdər İsmayılov həm də ədəbiyyat vurğunudur və xüsusilə, onun tərəfindən araşdırılan Hüseyn Cavid yaradıcılığı bu ədəbi irsin püxtələşməsinə, daha dərindən qavranılmasına səbəb olmuşdur. Bu gün Əjdər müəllim ən nüfuzlu cavidşünas olaraq, bu gün də həmin irsin mükəmməlləşməsi istiqamətində qiymətli araşdırmalarını aparmaqda davam edir.

Lakin yazının əvvəlində də vurğulandığı kimi, Əjdər İsmayılov ürəyi azərbaycançılıq məfkurəsi ilə döyünən ağsaqqal və ziyalı olaraq, hər zaman öndə olmuş görkəmli ictimai-siyasi xadimdir. Belə ki, hələ ötən əsrin 90-cı illərində ölkəmizdə baş verən ağır ictimai-siyasi mübarizədə xalqımızın dahi oğlu, Ümummilli Liderimiz Heydər Əliyevin daima yanında olmuş və xalqın azadlığı uğrunda qorxmadan, çəkinmədən və qətiyyətlə mübarizə aparmışdır. Əjdər müəllim, eyni zamanda, məşhur "91"lərdəndir və bu gün üzvlərinin sayı 700 min nəfəri ötən Yeni Azərbaycan Partiyasının yaradıcılarından biridir.

Söz yox ki, Azərbaycanın elmində,



ədəbiyyatında, eləcə də, ictimai-siyasi həyatında əzmlə, yorulmadan çalışan Əjdər müəllim ən xoş sözlərə, ən mötəbər hörmətə layiq olan Azərbaycan oğludur. Bu baxımdan, dəyərli alim Əjdər İsmayılovu 80 illik yubileyi münasibəti ilə bizlər də hörmətli ziyalımızı səmimi qəlbdən təbrik edir, yaradıcılıq və şəxsi həyatında davamlı müvəffəqiyyətlər və uğurlar arzulayırıq. Yubileyiniz mübarək, Əjdər müəllim!

***Rövşən RƏSULOV***

***Son günlər Ermənistanda vəziyyətin get-gedə daha da kritik həddə çatması, polis güclərinin ardınca, xüsusi təyinatlıların da proseslərə cəlb edilməsi hakimiyyətin xalqa qarşı qırğın planı hazırlaması ehtimalını yüksəltməkdədir. Belə olan halda, ABŞ-ın, Qərbi Avropanın və Rusiyanın hansı münasibət göstərəcəkləri barədə suallar yaranmağa başlayır. Bu baxımdan, bir sıra erməni təhlilçiləri sözügedən istiqamətdə maraqdoğurucu açıqlamalar verməkdədirlər.***



# ABŞ, Qərb və Rusiya Serj Sarkisyanı izolə edəcək

## *Erməni ictimaiyyətinin fikri dəyişilməzdir - o getməlidir!*

**Yerevan Mətbuat Klubunun rəhbəri Boris Navasardyan: “Hakimiyyət daha sərt güc tətbiq edərsə, bu, Ermənistan-Aİ sazişinin ratifikasiyası prosesinə və onun gələcəyinə kifayət qədər mənfi təsir göstərəcək”**



“Əgər Avropa İttifaqı prinsiplərinə əks şəkildə güc tətbiq olunarsa, jurnalistlərin fəaliyyətlərinə maneələr yaradılarsa və saxlanılan şəxslərin hüquqları pozularsa, Avropa İttifaqına üzv ölkələr bütün bunlardan öz nəticələrini çıxaracaqlar”. Bu fikirləri “1in.am” saytına Yerevanın mətbuat klubunun rəhbəri Boris Navasardyan, artıq bir həftəyə yaxındır ki, davam edən kütləvi xalq etirazına və bu etiraz dalğasına qarşı hakimiyyətin davranışlarına münasibətini bildirərkən deyib.

Onun sözlərinə görə, hakimiyyət daha sərt güc tətbiq edərsə, bu, Ermənistan-Aİ sazişinin ratifikasiyası prosesinə və onun gələcəyinə kifayət qədər mənfi təsir göstərəcək. “Hesab edirəm ki, bu, çox ağır nəticələrə gətirib-çıxaracaq. Çünki etiraz aksiyaları məsələnin aşırı güc tətbiqi ilə həllinə səbəb ola bilməz”-deyə qeyd edən mətbuat klubunun rəhbəri, hətta ayrı-ayrı yerlərdə kiçik toqquşmaların baş verməsinə baxmayaraq, hakimiyyətin buna getməməli olduğunu bildirib.

**“Modus Vivendi” mərkəzinin rəhbəri, politoloq Ara Papyan: “Əgər Sarkisyanda, bir balaca da olsa, patriotluq hissi qalıbsa, anlamalıdır ki, düşdüyü bu cür vəziyyəti ilə, o, Ermənistana daha ağır zərbələr vuracaq”**



“Modus Vivendi” mərkəzinin rəhbəri, politoloq Ara Papyan isə bildirib ki, o, hazırda Ermənistanda baş verən hadisləri alqışlayır. Belə ki, daha öncəki illərdə baş verənlər hədər yerə olmayıb. O, xüsusilə, gənclərin etiraz dalğasında məxsusi rol aldıqlarına görə, sevindiyini bildirib və qeyd edib ki, yeni nəsil artıq öz sözünü deyir.

Papyan ABŞ Dövlət Departamentinin Yerevanda baş verən hadisələrlə bağlı bəyanatına da toxunaraq, bildirib ki, orada səslənən fikirlər diplomatik mülahizələrlə ifadə edilib. “Əgər biz o ifadələri öz fikirlərimizlə əvəzləsək, deyə bilərik ki, ABŞ baş verənləri alqışlayır”-deyə qeyd edən erməni politoloqu bildirib ki, orada vurğulanan əsas tövsiyələrdən biri də Serj Sarkisyanın xalqa qarşı zor tətbiq etməməsi ilə bağlıdır: “Bundan sonra kimsə, yəni hakimiyyət qətiyyən güc tətbiqinə yol verməsin. Hesab edirəm ki, Serj Sarkisyan bunu dərk etməlidir. Hansı ki, onda bu güc var - hər halda, istənilən silahlı polis silahsız xalqa qarşı güclüdür. Ancaq bu, baş verərsə, Serj Sarkisyan, birmənalı olaraq, izolə olunacaq və nəinki ABŞ tərəfindən, eləcə də, Qərb və Rusiya tərəfindən. Ona görə də, düşünmürəm ki, Serj Sarkisyan siyasi meyit olmaq fikrindədir, xüsusilə, hazırkı məqamda. Əgər onda, bir balaca da olsa, patriotluq hissi qalıbsa, anlamalıdır ki, düşdüyü bu cür vəziyyəti ilə, o, Ermənistana daha ağır zərbələr vuracaq”.



**“Hakim elitada olan bir sıra insanlar Yerevanın Maştots-Tumanyan küçələrinin kəsişməsində qarşıdurmalar yaradaraq, məsələnin güc yolu ilə həllinə nail olmağa, bununla təxribat törətməyə çalışırlar”**

Ara Papyan Ermənistan parlamentində 77-si lehinə, 18-i əleyhinə səslərlə Serj Sarkisyanın baş nazir seçilməsi baxımından, xalqın etiraza qalxmasının, eləcə də, “məxməri inqilab” etməsinin hakimiyyət dəyişikliyinə səbəb ola biləcəyi ehtimalına da toxunaraq, bildirib ki, Serj Sarkisyan bütün hallarda getməlidir: “O, Ermənistanın iqtisadi inkişafının və təhlükəsizliyinin qarşısını alan, əksinə, təhlükə yaradan əsas maneədir”.

Erməni politoloqu müxalifətçilərin məsələnin sülh yolu ilə həll olunması tərəfdarı olduqlarını bildirib və növbəti dəfə hakimiyyəti ittiham edərək, qeyd edib ki, hakim elitada olan bir sıra insanlar Yerevanın Maştots-Tumanyan küçələrinin kəsişməsində qarşıdurmalar yaradaraq, məsələnin güc yolu ilə həllinə nail olmağa, bununla da təxribat törətməyə çalışırlar”.

Qeyd edək ki, paytaxt Yerevan da daxil olmaqla, Ermənistanın digər regionlarını da bürüyən etiraz dalğaları nəticəsində, yüzlərlə insan saxlanılıb və hüquq-müdafiə təşkilatları saxlanılanların hüquqlarının kobudcasına pozulduğunu, xüsusilə, jurnalistlərin fəaliyyətinə ciddi müdaxilələrin olduğunu bəyan edirlər.

***Rövşən NURƏDDİNOĞLU***

# Bu seçki müxalifətin sonunu gətirdi

## *Yaxud yeni müxalifət yarana bilərmi?*

***Seçkilər başa çatar-çatmaz son nəfəslərini alan radikal müxalifət partiyalrı artıq siyasi səhnədən silinəcəklərini dərk etməyə başlayıblar. Radikal müxalifət partiyaları deyərkən, burada yalnız özlərini "ana müxalifət" partiyaları elan etmiş AXCP, Müsavat və s. irili-xırdalı partiyalar deyil, eləcə də, uzun illər ölkənin siyasi arenasında mövcud olan, lakin fəaliyyətləri ilə nəzərə çarpa bilməyən, gah radikallaşan, gah da loyallaşan KXCP, ADP, AXP, ALP, ALDP, AzDP, VİP, hətta zaman-zaman parlamentdə yer almış VHP, "Ümid", AMİP tipli siyasi təşkilatları da göstərmək olar. Çünki ciddi müxalifət qüvvəsi olaraq, nə xalq tərəfindən, nə də tərəfdaşları tərəfindən dəstək qazana bilməyən, adları çəkilən və çəkilməyən partiyalar öz siyasi ömürlərini başa vurmaqdadırlar.***



hallar, ümumiyyətlə qəbul olunmur. Əksinə, partiyalar daxilində kreslo uğrunda ziddiyyətlər baş qaldırır, qruplaşma didişmələrinin sayı isə "n" qədərdir. Bu gün AXCP-nin 4-5 yerə, Müsavatın da eyni rəqəmlərə, AMİP-in iki yerə - VİP-ə, ADP-nin də iki yerə - "GAP"a və sairələrinin müxtəlif cinah-

### Öz kreslolarını təhvil vermək fikrində olmadıqlarını sərgiləyən "liderlər" bu məsələnin gündəmdən çıxmasına çalışdılar, hətta buna nail də oldular



Xatırladaq ki, hələ 2003-cü ilin prezident və 2005-ci ilin parlament seçkilərindən sonra təməlləri parçalanmağa başlayan müxalifət partiyaları o zamanlar məhvə doğru sürükləndiklərinin fərqinə varmağa başladılar və onda partiyaların yeni nəsillə əvəzlənməsi məsələsi gündəmə çıxarıldı. Ancaq öz kreslolarını təhvil vermək fikrində olmadıqlarını sərgiləyən "liderlər", bu məsələnin gündəmdən çıxmasına çalışdılar, hətta nail oldular. 2008-2013-cü ilin prezident seçkiləri, eləcə də, 2010-2015-ci ilin parlament seçkiləri də müxtəlif bəhanələrlə, necə deyərlər, yola verildi və müxalifət həmin müddətdə də öz nimdaşlığını saxlamağa müyəssər oldu. Düzdür, ötən illər ərzində, partiya sədrliklərini təhvil verənlər də oldu, ancaq onların təsir gücləri bu gün də siyasi təşkilatları üzərində qalmaqda davam edir. Misal üçün, İsa Qəmbər bu gün də Müsavata nəzarət gücünü saxlayır, eləcə də, Pənah Hüseyn sədrlikdən istefa versə də, sonradan yenidən AXP-yə sədr seçildi. O cümlədən, ALP sədri Lalə-Şövkətin ALP-yə nəzarəti bu partiyanın sədri Əvəz Temirxan olsa da, qalmaqda davam edir. Bütün bunlar isə, köhnə və naftalin qoxusu verən müxalifətin iç üzünü bir daha qabarıq fonda nümayiş etdirir.

### Ölkədə formalaşmış radikalizm və xarici qüvvələrlə iş birliyi məsələsi əks-düşərgənin ən zəif nöqtəsidir

Fakt budur ki, dünyanın siyasi təcrübəsinə görə, nüfuzlu siyasətçilər partiyanı tərk edib, onların boş qalmış yerinə gənclər təyin olunub. Azərbaycanın dırnaqrarası müxalifətində isə belə lara parçalanması bütün bunları yetərincə sübuta yetirmiş olur.

Hazırda köhnə müxalifəti dəyişməyə cəhd edən "Ağ Partiya", "REAL", "ADR" hərəkatı və daha bir neçə təşkilatlar var ki, onların məqsədlərinin reallaşması da mümkün görünmür. Hər halda, ölkədə formalaşmış radikalizm və xarici qüvvələrlə iş birliyi məsələsi əks-düşərgənin ən zəif nöqtəsidir. Halbuki bir çoxları yeni yaranarkən, yalnız milli dövlətçilik maraqlarına xidmət edəcəklərini, müxalifətçiliyin xəyanətlə əvəz olunmayacağını iddia edirlər. Lakin atalar demişkən, sən saydığını say, gör fələk nə sayır...

***Rövşən RƏSULOV***

## Donald Tramp: Neftin qiyməti süni şəkildə çox yüksəkdir



Neftin qiyməti süni şəkildə çox yüksəkdir. AZƏRTAC xəbər verir ki, bu barədə ABŞ Prezidenti Donald Tramp özünün "twitter" səhifəsində yazıb. "OPEC yenə eyni işi görür. Neftin miqdarının dənizdəki dolu tankerlər daxil olmaqla hər yerdə rekord səviyyəyə satdığı bir zamanda "qara qızıl"ın qiyməti süni şəkildə çox yüksəkdir. Bu, yaxşı hal deyil və qəbuledilməzdir", - deyə D.Tramp bildirib. ABŞ Prezidentinin bu sözlərinin Səudiyyə Ərəbistanının Ciddə şəhərində keçirilən Neft İxrac edən Ölkələr Təşkilatına (OPEC) üzv və kartelə daxil olmayan ölkələrin - OPEC+ Nazirlərinin Birgə Monitorinq Komitəsinin iclası ilə eyni vaxta təsadüf etməsi analitiklər tərəfindən birmənalı qarşılanmayıb.

D.Trampın bu çıxışından sonra ötən gün son 3 ilin maksimumuna çatan neftin qiyməti yenidən ucuzlaşmağa başlayıb. Hazırda "Brent" neftinin bir barreli Londonun ICE birjasında 73,30 dollara, "Light"ın bir barreli isə Nyu-Yorkun NYMEX birjasında 67,94 dollara alıcı axtarır.

## Rumıniya prezidenti ölkə səfirliyinin Qüdsə köçürülməsi təklifini dəstəkləməyib



Rumıniya Prezidenti Klaus Yohannis ölkə səfirliyinin Təl-Əvivdən Qüdsə köçürülməsi təklifindən bixəbər olub. O, hökumətin bu təşəbbüsünü beynəlxalq hüquqa zidd hesab edir. AZƏRTAC TASS informasiya agentliyinə istinadla xəbər verir ki, bunu Rumıniya prezidentinin administrasiyası bildirib. "Prezident təsdiqləyir ki, Qüdsün statusu barədə ölkəsinin mövqeyi əvvəlki kimi BMT Təhlükəsizlik Şurasının və BMT Baş Assambleyasının qəbul olunmuş qətnaməsinə uyğundur", - deyə prezident administrasiyası vurğulayır. Bu ərəfədə ölkənin hakim Sosial-demokrat partiyasının lideri Liviu Draqnya məlumat verib ki, hökumət Rumıniyanın İsraildəki səfirliyinin Qüdsə köçürülməsinin başlanması barədə memorandum qəbul edib.



## *ƏLİ KƏRİMLİ ÜÇÜN ŞƏHİD KƏLMƏSİ MÖVCUD DEYİL!*

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

***Ölkə rəhbərimizin təxminən 9 min şəhid və itkin düşmüş əsgərlərimizin ailələrinə 11 min manat birdəfəlik yardım ayrılması barədə verdiyi Fərmanının ardınca, ölkə ictimaiyyətinin bu mötəbər addıma münasibəti, birmənalı olaraq, yüksək oldu. Çünki Vətən uğrunda canlarını qurban verərək, şəhidlik zirvəsinə çatmış hər bir eloğlumuz və elqızımız bu gün həyatda olmasalar da, onların ailələri, yaxınları, övladları, bir sözlə, varəsələri həmin qayğını öz üzərlərində hiss etməkdədirlər.***

Lakin məni və bəlkə də bir çoxlarını düşündürən başqa məsələ var. Görəsən, dövlət siyasətinin tərkib hissəsi olan bu kimi qərarlar nəyə görə özlərini "ana müxalifət" adlandıran partiya "liderlərini" qıcıqlandırır? Ona görə ki, Əli Kərimli, Arif Hacılı, Cəmil Həsənli və s. kimi siyasi dəllallar ömürlərində bircə dəfə olsa belə, reallığı dərk edərək, şəhid ailələrinə göstərilən dövlət qayğısı barədə müsbət fikir danışmırlar. Danışmırlarsa, dinmirlərsə, demək ki, qıcıqlanırlar. Çünki beləleri üçün nə Vətən, nə dövlət, nə də xalq məfhumu mövcud olmayıb və olmayacaq da! Halbuki...

Halbuki söhbət şəhidlərdən gedir! Bu gün mənimlə yanaşı, bir çoxları yenə də sual edirlər ki, acaba, bu siyasi dəllallar xalq və dövlətçilik maraqları üçün verilən digər çoxsaylı qərarlara "korluqları", "karlıqları", "lallıqları" ilə etinasızlıq göstərirlərsə, yəni özlərini, sözün əsl mənasında, axmaqlığa qoyurlarsa, bəs, bu kimi həssas məsələdə niyə həmin sərsəm şakərlərini nümayiş etdirirlər?! Məgər şəhid kəlməsi onlar üçün bu qədərmi qəbuledilməzdir?! Torpaq uğrunda canından, qanından keçən oğul və qızlarımız onlara bu qədərmi yaddır? Niyə bu siyasi dəllalların Avropadakı hürən itləri - orduxanlar, turallar, rəfaillər və başqaları bir neçə ay əvvəl quduzlaşarkən, onları özlərinə "qəhrəman" seçirdilər, şəhidlərin ruhlarına hörmət məqamı gələndə, bunların gözlərinə nizə girir?!

Təkcə bir misal gətirmək istərdim. Əli Kərimlinin gözəlçəsi Fatimə Mövlamlı dövlət atributumuza qarşı xuliqanlıq hərəkəti etdiyinə görə saxlanılmışdı və təkcə bu məsələnin üzərində bizlər Əli Kərimlinin özünü necə "lezvalamağının" şahidi olduq. Hansı ki, cəmiyyətdə kifayət qədər əxlaqsızlığı və tüfeyli həyat tərzi ilə seçilən həmin "qız" sosial şəbəkələrdə siqareti "paravoz" kimi tüstülədib, arağı da "zakuzkasız" vurmağını nümayiş etdirirdi. Artıq neçə gündür ki, Kərimlinin nəzarətində olan bəzi mətbuat səhifələrində onu az qala Janna D-Ark elan ediblər (?!) Bir pozğunu bu qədər yüksəklərə qaldıra bilənlər varsa, o da yalnız Əli Kərimli və onun yan-yörəsində olan siyasi fahişələrdir!

Şəhidlik mücəssəməsi yazan igid və qəhrəman övladlarımız isə beləleri üçün maraqlı deyil. Axı onların üzərindən pul-para qazanmaq, avropalı ağalarına və erməni lobbisinə yarınmaq mümkün deyil! Ona görə də, beləleri heç şəhid kəlməsini ağızlarına almasalar, yaxşıdır. Ən azından, bu kəlmə təmiz ağızlardan çıxmalıdır...

***P.S.** Yeri gəlmişkən, bu yaxınlarda bir çoxlarının bəyənmədiyi müğənni Üzeyir Mehdizadənin Türkiyədə etdiyi konsert səfərində ajiotajı yaxşı gördük. Onun fanatları Əli Kərimlinin tərəfdarlarını yüz dəfə ötüb keçir. Halbuki, bu müğənninin yaşı Əli Kərimlinin siyasətdə olduğu müddətdən də azdır...*

# İnsanların təbii hüququ

***Filosof Tomas Hobbs 17-ci əsr İngiltərəsində dramatik hadisələrin fəal iştirakçılarından olmuşdur. Monarxist olan Hobbs parlament tərəfdarlarından canını qurtararaq, Fransaya mühacirət edib, orada gənc II Karlın (edam edilmiş I Karlın oğlu) tərbiyəçisi olur. O, 1651-ci ildə vətənə qayıdır və Kromvelin respublikaçı hökuməti ilə barışır.***

Hobbs özünün başlıca əsərlərində ("Fəlsəfənin əsasları" (1642), "Leviafan" (1651), "Begemot" (1668)) ictimai müqavilənin yeni nəzəriyyəsini irəli sürür. Bu yeni nəzəriyyə onun rədd etdiyi İngiltərə inqilabı hadisələrinin təhlili nəticəsində meydana gəlmişdi. Hobbsun həll etməyə çalışdığı başlıca məsələ vətəndaş iğtişaşlarının səbəbi və onların qarşısının alınmasından ibarət idi.

Hobbsa görə, insan anadan "təbii hüquqları" (Rights of Nature) - tələbatlarının ödənilməsi haqları ilə doğulur. Onlara yaşamaq, başlıca həyat tələbatları, düşmən təcavüzündən qorunmaq haqları daxildir. Təbii haqlar vəhşi, cəmiyyətə qədərki tarixi dövr insanlarını səciyyələndirir, burada hələ nə qanun, nə də mülkiyyət - yalnız hər kəsin özünə lazım olan şeyləri qoparıb almaq haqqı var. İnsan özü özünə hakimlik edir. İnsan təbiəti etibarilə eqoist olduğuna görə hər kəs çalışır ki, daha çox şey ələ keçirsin, buradan da "hamının hamıya qarşı müharibəsi" başlayır.

Bu müharibənin qarşısını almaq məqsədilə insanlar öz aralarında öz təbii haqlarını, öz qeyri-məhdud azadlıqlarını hamılıqla könüllü məhdudlaşdırmaq haqqında razılığa gəlirlər. İnsanlar onları bir-birindən müdafiə etməli olan bir dövlət yaratmaq haqqında ictimai müqavilə bağlayırlar. Hobbs hər şeyə qadir olan dövləti Leviafanla - azman və hər şeyə qadir Bibliya əjdahası ilə eyniləşdirir. Dövlət tam suverenliyə - vətəndaşlar üzərində tam hakimiyyətə malikdir. Suveren qanuna tabe deyil, o, qanunları özü yaradır. Suveren yalnız Allah qarşısında məsuldur. Parlament də, aristokratiya da suveren rolunu oynaya bilər, lakin kral olsa, daha yaxşı olardı.

Hobbs vətənə dönəndə artıq I Karl edam olunmuş və ölkədə respublika qurulmuşdu. Bu yeni şəraitə də o öz nəzəriyyəsinə aşağıdakı müddəanı əlavə edir: əgər dövlət daha vətəndaşların təhlükəsizliyini təmin edə bilmirsə (yaxud özü tapdalayırsa), ictimai müqaviləni ləğv etmək olar. Cəmiyyət içərisində yaşayan hər bir insan "təbii qanuna" (Law of Nature), etik davranış normalarına tabe olmalıdır: insan mümkün olan qədər sülhə can atmalıdır; hər kəs başqalarını özünə bərabər hesab etməlidir; özünün şəxsi işində hakimlik etməməli, suverenin hakimliyini qəbul etməlidir. Əsas qayda isə bizə yaxşı məlumdur: özünə rəva görmədiyini başqasına da görmə.

Hobbsun ideyalarını həm mütləqiyyətin, həm də demokratiyanın xeyrinə izah etmək olar. Məsələn, Hobbsun nəzəriyyəsinin belə bir müddəası monarxistlər partiyasının qəzəbinə səbəb oldu ki, dövlət vətəndaşların könüllü razılığı ilə yaradılır və hökmdar vətəndaşların təhlükəsizliyini təmin edə bilmirsə, hakimiyyətdən salına bilər.

Hobbsun ictimai müqaviləsi ədalətli ictimai quruluşa dair antik və orta əsr baxışları və müqayisədə irəliyə doğru böyük bir addım oldu və liberalizm nəzəriyyəsinin inkişafına təkan verdi.

Tomas Hobbs "Leviafan" əsərində yazırdı: "İnsanları qorumağa qadir ola bilən bu cür ümumi hakimiyyət yalnız bir yolla, məhz bütün hakimiyyətin və gücün bir adamın, yaxud insan toplumunun əlində cəmləşdirilməsi ilə qurula bilər".



Daha sonra T.Hobbs göstərirdi ki, insanlar yaranışdan bərabərdir. Təbiət insanları fiziki və əqli qabiliyyət baxımından bərabər yaratmışdır, çünki biz bəzən bir insanın başqasından fiziki cəhətdən güclü, yaxud ağıllı olduğunu görsək də, hər şeyi, bütövlükdə nəzərdən keçirəndə, görərik ki, onların arasındakı fərq elə böyük deyildir ki, bir insan bu fərqə əsaslanaraq, özü üçün hər hansı bir nemət iddiasında olsun, başqası isə eyni haqla bunu tələb edə bilməsin. Fiziki gücə gəldikdə isə, daha zəif olanın kifayət qədər gücü vardır ki, gizli fırıldaqlar, yaxud eyni təhlükənin hədələdiyi digər insanlarla ittifaq yolu ilə daha güclü olanı öldürə bilsin. Əqli qabiliyyətlərə gəlincə isə (mən əsasında sözün durduğu incəsənəti, xüsusilə, elm adlandırılan ümumi və sarsılmaz qaydalara yetmək incəsənətini bir kənara qoyuram - bu cür qaydalara çox adam, özü də çox az şeylə ələqədar yiyələnib, çünki bu qaydalar bizimlə birgə doğulmuş fitri qabiliyyətlər deyil, bunlar, həmçinin, nəyinsə üzərində müşahidə prosesində qazanılmış ağıl və kamal kimi qabiliyyətlər də deyil), mən bu sahədə fiziki güclə müqayisədə insanlar arasında daha çox bərabərlik görürəm. Belə ki, ağıllılıq yalnız bütün insanların eyni vaxt ərzində eyni səylə məşğul olduqları şeylər barədə eyni dərəcədə əldə etdikləri təcrübədir. Yəqin bu bərabərlik ona görə ağlasığmaz görünür ki, hər kəs bütün insanlara xas olan bir lovğalıqla öz şəxsi müdrikliyi haqqında xam xəyallara qapılaraq, özünü "qara camaatdan" daha ağıllı bilir...

Bərabərlik üzündan qarşılıqlı inamsızlıq doğur. Qabiliyyətlərin bərabərliyi üzündən məqsədəyetmə ümidlərinin bərabərliyi yaranır. Bax, buna görə iki nəfər eyni bir şeyi arzuladıqda və ikilikdə buna yiyələnə bilmədikdə, bir-birinə düşmən kəsilir. Onlar məqsədəyetmə yolunda (bu, əsasən, həyatı qoruyub-saxlamaqdan, bəzən isə yalnız həzz almaqdan ibarət olur) bir-birlərini məhv etməyə çalışırlar. Belə çıxır ki, insan hücumun qarşısında təkbaşına qalanda, o, əkmək, biçmək və qurmaqla, yaxud hər hansı bir ləyaqətli adın sahibi olmaqla yanaşı, əminliklə gözləyə bilər ki, başqa adamlar gələrək, birləşmiş qüvvəylə onun mülkünü əlindən alacaq, onu nəinki öz əməyinin bəhrələrindən, həm də həyatdan, yaxud azadlıqdan məhrum edəcəklər. Hücum edən də özünü başqaları tərəfindən bu cür təhlükədə hiss edir. Qarşılıqlı inamsızlıqdan müharibə törəyir. Bu qarşılıqlı inamsızlıq üzündən insan üçün öz həyatının təhlükəsizliyini təmin etməyin ən ağıllı üsulu ehtiyat tədbirləri görmək, yəni gücün, yaxud hiylənin köməyi ilə bacara bildiklərinin hamısını etməkdir. Bu tədbirlər özünüqoruma çərçivəsindən kənara çıxmır və buna görə, adətən, yolverilən sayılır...

Beləliklə, biz insan təbiətində müharibənin üç əsas səbəbini tapmış oluruq: birincisi rəqabət, ikincisi inamsızlıq və üçüncüsü şöhrət yanğısı. Birinci səbəb insanları qazanc, ikinci səbəb şəxsi təhlükəsizliyi təmin etmək məqsədilə, üçüncü səbəb isə şərəf mülahizələri üzündən bir-birlərinə hücum etməyə sövq edir. Ümumi hakimiyyət olmayan durumda hamının hamıya qarşı müharibəsi baş verir. Buradan göründüyü kimi, nə qədər ki, insanlar hamını qorxu içində saxlayan ümumi hakimiyyətdən məhrumdur, onlar elə müharibə durumundadır ki, hamı hamıya qarşı müharibə aparır. Çünki müharibə yalnız döyüş, yaxud hərbi əməliyyat deyildir, müharibə həm də elə zaman kəsiyidir ki, bu vaxtda mübarizə iradəsi döyüş yolu vasitəsilə öz aşkar təsirini göstərmiş olur. Buna görə müharibə anlayışına hava anlayışı kimi zaman məfhumu da daxil edilməlidir. Rütubətli hava anlayışı yalnız bir-iki yağışdan yox, bir çox günlər ərzində bu yağışı fasiləsiz gözləməkdən ibarət olduğu kimi, müharibə anlayışı da yalnız gedən döyüşlərdən deyil, barışığa ümid olmadığı bütün vaxt ərzində müharibəyə aşkar canatmadan ibarətdir. Bütün qalan vaxt sülh deməkdir.

Bu cür müharibənin əlverişsizliyi. Bax, buna görə hamının hamıyla düşmən olduğu müharibə dövrü üçün səciyyəvi olan hər şey insanların öz fiziki gücündən, fərasətindən savayı, heç bir təhlükəsizlik təminatı olmadan yaşadıqları dövr üçün də səciyyəvidir. Belə bir vəziyyətdə zəhmətsevərliyə yer yoxdur, belə ki, heç kəsin öz zəhmətinin bəhrəsinə görə biləcəyinə təminat yoxdur və buna görə də əkinçilik, gəmiçilik, dəniz ticarəti, rahat binalar yoxdur, nəqliyyat və böyük güc tələb edən şeylərin daşınma vasitələri yoxdur, yer səthini, zaman hesablanmasını öyrənən elmlər, peşələr, ədəbiyyat yoxdur. Cəmiyyət yoxdu ən pisi isə odur ki, bunların əvəzində, əbədi qorxu və zorakı ölümün daimi təhlükəsi var və insanın həyatı yalqız, yoxsul, qaranlıq, küt və çox qısadır...

Hər halda, qorxu təlqin edən ümumi hakimiyyət olmadıqda, insan həyatının necə keçə biləcəyini əvvəllər dinc hökumətin rəhbərliyi altında yaşamış adamların, adətən, vətəndaş müharibəsi zamanı düşdükləri həyat tərzinin nümunəsindən də görmək olar.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 21 aprel


## Mikrobların ən çox olduğu əşyalar...

Avstraliya alimləri çox maraqlı eksperiment apardılar. Onlar insanlar gün ərzində ən çox toxunduğu əşlayardan yaxmalar götürüb bu yaxmalarda mikrobların sıxlığını təyin ediblər. Araşdırma göstərib ki, mikrobların ən sıx olan əşyalar telefonların ekranları və kompüterlərin klaviaturalarıdır. Daha sonra qapı dəstələri, masa və stullar gedir. Alimlər qida qəbulundan əvvəl əlləri yumağı, qida qəbulu zamanı telefonlardan istifadə etməməyi, kompüterdə işləyəndə qida qəbul etməməyi tövsiyə edirlər. Bu sadə məsləhətlər təhlükəli mikrobların orqanizmə daxil olmasına mane olacaq.



## Bu bitki diabet xəstələri üçün əvəzsizdir!



Cincilim yabanı halda bitsə də, bostanda, kövşəndə, çəməndə və əkin yerlərində az qala hər addımda ona rast gəlmək olar. Yazda təbiət oyanan kimi torpağın sinəsindən boy göstərən cincilim o qədər də uzunömürlü bitki deyil - tez boy atır və tez də ömrünü başa vurur. Tərəvəz və yem bitkisi hesab edilir. Cincilim apreldən başlayaraq soyuqlar düşənə qədər çiçəkləyir. Onu az qala hər bostan və ya çəməndə axtarıb tapmaq olar. AZƏRTAC tibbi sayt və mənbələrə istinadla xəbər verir ki, cincilim diabet xəstələri üçün əvəzsiz göyərtidir. Hər gün onu yığıb yarpaqlarını axar suyun altında yuyaraq salatlara əlavə etmək çox faydalıdır. Eyni zamanda, pörtlətmək, bişirmək, qurutmaq, ədviyyat kimi istifadə etmək də çox xeyirlidir. Ondan müntəzəm şəkildə istifadə etmək əsas şərtlərdən biridir. Cincilim orqanizmin ümumi maddələr mübadiləsini yaxşılaşdırır, toksinləri çıxarır və qaraciyərin, o cümlədən bütün daxili orqanların işini normallaşdırır.

Qıcolmalar, aritmiya, nevrozlar, mədə xorası və zob xəstəliyində cincilimdən istifadə etmək çox faydalıdır, çibanlar, diatez və ekzemalar onun vasitəsilə tez keçib gedir. İşlədici və sidikqovucu xüsusiyyətləri var. Artrit, podaqra, revmatizm və müxtəlif zədələr zamanı istifadə olunur. Yuxusuzluq, piylənmə və göz iltihabı zamanı da cincilim müsbət təsir göstərir. Xalq təbabətində cincilimin su ilə qarışdırılmış şirəsi mədə-bağırsaq xəstəlikləri zamanı ağrıkəsici kimi işlədilir. Amerika əczaçılıq şirkətlərinin cincilimdən hazırladığı dərman preparatları maddələr mübadiləsinin pozulması, xüsusilə şəkər xəstəliyi, qaraciyər və dəri xəstəliklərində geniş tətbiq edilir. Qızdırmasalıcı, orqanizmdə qanın keyfiyyətini yaxşılaşdırıcı və sakitləşdirici keyfiyyətləri var. Yazda cincilim zoğları yığılıb yuyulandan sonra dəsmalla qurudulur. Üyüdüb tozunu şüşə bankaya boşaldır, lazım gələndə bir sıra xörək və buterbrodlara səpirlər.

## ABŞ-da ölüm hökmünə məhkum olunmuş ən yaşlı qatil edam edilib



Alabama hökuməti 83 yaşlı Uolter Mudi barəsində verilən ölüm hökmünü icra edib. AZƏRTAC xarici KİV-lərə istinadla xəbər verir ki, hökm öldürücü inyeksiya vasitəsilə icra olunub. O, ABŞ-da ölüm hökmləri ilə bağlı 1970-ci ildə qəbul olunan yeni qanunlardan bəri edam edilən ən yaşlı məhbusdur.

Qeyd edək ki, Uolter Mudi 1989-cu ildə federal hakim Robert Vensin qətlində günahkar bilinib. Cani hakimə poçt vasitəsilə bomba göndərib. Mudi ömrünün 20 ilini ölüm hökmünə məhkum olunan məhbusların kamerasında keçirib. Həbs müddətində dəfələrlə ölüm hökmünün icrasının təxirə salınmasına cəhd etsə də, buna nail ola bilməyib.

## Elan

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Biologiya müəllimliyi ixtisası üzrə II kurs tələbəsi Məmmədova Səbinə Pərviz qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Abbasova Sevda Sabir qızına məxsus Nəsimi rayonu Azadlıq prospekti 84, mənzil 35 ünvanında yerləşən mənzilin çıxarışı itdiyi üçün etibarsız sayılır.

## Daha üç boksçumuz Avropa birinciliyində mərhələ adlayıb



İtaliyanın Rozeto-deli-Abrutsi şəhərində gənc boksçular arasında Avropa birinciliyi davam edir. Yarışın ikinci günündə Azərbaycan millisinin 3 idmançısı rinqə çıxıb. Onların hər üçü döyüşünü qələbə ilə başa vurub. AZƏRTAC xəbər verir ki, turnirdə 60 kiloqram çəki dərəcəsində qüvvəsini sınayan Nurlan Səfərov 1/16 final mərhələsi çərçivəsində Stefan Kirkorovla (Bolqarıstan) qarşılaşıb. Görüş təmsilçimizin 5:0 hesablı qələbəsi ilə yekunlaşıb. N.Səfərov 1/8 finalda rusiyalı Kaqir Minatullayevlə üz-üzə gələcək.

Zaur Musayev (81 kq) də ilk qarşılaşmasını qələbə ilə başa vurub. O, 1/8 finalda Damyan Zavieruşinskini (Polşa) texniki nokautla mübarizədən kənarlaşdırıb. Boksçumuz növbəti görüşünü rusiyalı Ruslan Kolesnikova qarşı keçirəcək. Yarışda 91 kiloqram çəki dərəcəsində ölkəmizi təmsil edən İsmayıl Yaqubov isə 1/4 finala gedən yolda Viktor Yurkla (Almaniya) üz-üzə gəlib. Gərgin keçən döyüşdə həmyerlimiz rəqibini 3:2 hesabı ilə məğlub edib. O, aprelin 22-də olacaq ikinci görüşündə İqor Fedorovla (Rusiya) mübarizə aparacaq.

## Şenol Günəşin başı yarıldı, derbi təxirə salındı!



Futbol üzrə Türkiyə kubokunun yarımfinalında keçirilən "Fənərbaxça" - "Beşiktaş" cavab oyunu yarımçıq dayandırılıb. Qol.az-ın məlumatına görə, buna matçın ikinci hissəsində baş verən hadisələr səbəb olub. Görüşün 56-cı dəqiqəsində hesab 0:0 ikən "Beşiktaş"ın ehtiyat qapıçısı Tolga Zenginlə "Fənərbaxça"lı azarkeşlər arasında mübahisə düşüb. Bu zaman "qara qartallar"ın baş məşqçisi Şenol Günəş vəziyyəti sakitləşdirməyə çalışıb. Həmin vaxt onun başına tribunadan yad əşya atılıb. Bundan sonra meydandan kənarda gərginlik yaşanıb. Baş verənlərə görə "Beşiktaş"ın baş məşqçisi və futbolçular paltardəyişmə otağına gedib. Bundan sonra görüşün baş hakimi Mete Kalkavan oyunu yarımçıq dayandırıb və paltardəyişmə otağına gedib. Hakim briqadası baş verənlərə görə görüşün təxirə salınmasına qərar verib.

## "Atletiko" acınacaqlı məğlubiyyətlə üzləşdi



"Atletiko" futbol üzrə İspaniya La Liqasında növbəti oyununa çıxıb və acı məğlubiyyətlə üzləşib. Belə ki, Madrid klubu 33-cü turda "Real Sosyedad"ın qonağı olub və gözlənilmədən meydanı başıaşağı tərk edib. Matç meydan sahiblərinin 3:0 hesablı qələbəsi ilə başa çatıb.

## "Arsenal"da Arsen Venger dövrü başa çatır



İngiltərənin "Arsenal" futbol klubunun baş məşqçisi Arsen Venger cari mövsümün sonunda vəzifəsini tərk edəcək. Bu haqda klubun saytında məlumat verilib. Arsen Vengerin klubun saytında yerləşdirilən açıqlamasında qeyd olunub: "Mən bu barədə bir müddət düşündüm və klubdakı vəziyyətə baxdıqdan sonra getmək qərarına gəldim. Hesab edirəm ki, indi "Arsenal"dan ayrılmağın ən yaxşı vaxtdır. Belə bir kluba yaddaqalan illər ərzində xidmət etmək şərəfinə nail olduğum üçün çox məmnunam. Mən bütün qəlbimlə bu kluba xidmət etdim. Klubun bütün heyətinə, o cümlədən futbolçulara, rəhbərliyə və komandaya daim dəstək olan azarkeşlərə minnətdarlığımı bildirmək istəyirəm. 1996-cı ildən "Arsenal"ı çalışdıran fransalı mütəxəssisin rəhbərliyi ilə klub üç dəfə İngiltərə çempionluğu, yeddi dəfə ölkə kuboku və bir dəfə isə liqa kubokunu qazanıb. Hazırda "Arsenal" Premyer Liqada altıncı sırada qərarlaşıb.


*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500